# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 21 (1421), 21 - 27 may 2019-cu il*

*Qəzet 2001-ci ildən çıxır.*


## "Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu və UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar vergi və gömrük güzəştləri və azadolmalarının tətbiqi üçün təsdiqedici sənədin verilməsi Qaydası"nın təsdiq olunması haqqında

## Azərbaycan Respublikası Prezidentinin

## F ə r m a n ı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2019-cu il 9 aprel tarixli 1559-VQD nömrəli və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2019-cu il 9 aprel tarixli 1560-VQD nömrəli qanunlarının tətbiqi ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu və UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar vergi və gömrük güzəştləri və azadolmalarının tətbiqi üçün təsdiqedici sənədin verilməsi Qaydası" təsdiq olunsun (əlavə edilir).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 16 may 2019-cu il.*



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti ilə görüşüblər

Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova ilə görüşüblər.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında idman sahəsində əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə İrina Aleksandrovna Viner-Usmanova Prezident İlham Əliyevin Sərəncamına əsasən "Dostluq" ordeni ilə təltif edilib. Dövlətimizin başçısı ordeni İrina Viner-Usmanovaya təqdim etdi.

Prezident İlham Əliyev Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanovanı Azərbaycanın yüksək mükafatlarından olan "Dostluq" ordeni ilə təltif olunması münasibətilə təbrik etdi və onun ölkələrimiz arasında idman və ümumilikdə dostluq əlaqələrinin inkişafındakı rolunu xüsusi vurğuladı. Prezident İlham Əliyev İrina Viner-Usmanovaya Azərbaycanda gimnastika məktəbinin yaradılması işinə verdiyi böyük töhfəyə görə də minnətdarlığını bildirdi. Dövlətimizin başçısı İrina Viner-Usmanovanın təkcə Azərbaycanda deyil, dünya idman aləmində böyük nüfuza malik olduğunu qeyd edərək məhz onun səyləri nəticəsində Rusiya gimnastlarının da uzun illərdir yüksək nəticələr göstərdiyini vurğuladı. Prezident İlham Əliyev İrina Viner-Usmanovaya gələcək fəaliyyətində yeni-yeni uğurlar arzuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən İrina Viner-Usmanova Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən ona göstərilən diqqətdən böyük məmnunluq hissi keçirdiyini qeyd etdi. O, birinci xanım Mehriban Əliyevanın Azərbaycanda bədii gimnastika növünün əsasının qoyulmasında və inkişafında xüsusi rolunu yüksək qiymətləndirdi. İrina Viner-Usmanova Azərbaycanda bədii gimnastika növünə göstərilən qayğıdan danışaraq Bakıda çox möhtəşəm gimnastika arenasının inşa edildiyini qeyd etdi. Azərbaycana səfərlərindən məmnunluq hissini ifadə edən İrina Viner-Usmanova ölkəmizə hər gəlişi zamanı böyük inkişaf proseslərinin, yeni-yeni memarlıq nümunələrinin şahidi olduğunu vurğuladı.

## Vyanada Avropa Olimpiya Komitəsinin növbəti seminarı keçirilib

Avstriyanın Vyana şəhərində Avropa Olimpiya Komitəsinin (AOK) növbəti seminarı keçirilib.




Tədbirdə Azərbaycan nümayəndə heyətini AOK-un İcraiyyə Komitəsinin üzvü, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə və MOK-un marketinq direktoru Mehman Kərimov təmsil ediblər.

Seminar çərçivəsində "İdmanın Avropa modeli", "Olimpiya idman tədbirləri", "Avropada idmanın təbliğində qadının rolu", "Cəmiyyətə idmanın təsiri və sosial inteqrasiya", "İdmanda yüksək texnologiyalar", "İdmanın kommersiyalaşdırılması", "İdman və urbanizasiya" mövzularında sessiyalar keçirilib.

Tədbir çərçivəsində Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalı, Minsk-2019 Avropa Oyunları, Tokio-2020 və Paris-2024 Yay Olimpiya Oyunlarına dair hesabat və fəaliyyət planı Təşkilat Komitələri tərəfindən təqdim olunub. Bundan başqa, Ümumdünya Antidopinq Agentliyinin məruzəsi və Kiçik Avropa Ölkələrinin Oyunları gündəlikdə olan məsələlər sırasında olub.

Həmçinin, AOK-un seminarı çərçivəsində qış idman növləri üzrə "Pyotr Nurovski - Avropanın ən yaxşı gənc idmançısı" mükafatı Aleksandra Trusovaya təqdim olunub.

Sonda 2020-ci ildə təşkil olunacaq AOK-un 41-ci seminarının Slovakiyada keçiriləcəyi açıqlanıb.

## XV Avropa Gənclər Olimpiya Festivalına 61 gün qalır





## II Avropa Oyunlarına 31 gün qalır

# Olimpizm

### İkiqat Olimpiya çempionunun adı Şöhrət zalına daxil edilib

İkiqat Olimpiya çempionu Mariya Filatovanın adı Beynəlxalq Şöhrət Zalına daxil edilib. Bununla bağlı mayın 18-də ABŞ-ın Oklahoma-Siti şəhərində təntənəli mərasim keçirilib.



Hazırda 57 yaşlı Olimpiya çempionu Moskvada Leninsk-Kuznetsk Olimpiya mərkəzində məşqçilik fəaliyyəti ilə məşğuldur.

Mariya Filatova idman gimnastikası üzrə Monreal-1976 və Moskva-1980 Olimpiadasının çempionudur. Xanım idmançı həm də ikiqat dünya və Avropa çempionudur.

### Dopinq qaydaları pozulub

Rusiya Antidopinq Agentliyi (RAA) ötən ayda idmançılar tərəfindən 10 dəfə antidopinq qaydalarının pozulması ilə bağlı məlumat verib. Bu barədə RAA-nin baş direktorunun müavini Marqarita Paxnotskaya xəbər verib.

Onun sözlərinə görə, agentliyin əməkdaşları tərəfindən bu ilin ilk dörd ayı ərzində 34 dəfə pozuntu aşkar edilib ki, onun 10-u aprel ayına təsadüf edir.

## *Anons*


### Janez Koçijançiç: *"Avropa Oyunları Olimpiadadan sonra ikinci əhəmiyyətli turnir olmalıdır"*



Səh. 3

Ölkəmizdə keçirilən bədii gimnastika üzrə XXXV Avropa çempionatına yekun vuruldu — Səh. 2

*Atletimiz üçtəkanla tullanma yarışında üçüncü yeri tutub* — Səh. 3

*Dillər və Slavyan Universitetləri tələbələrinin OCEP-ə töhfələri* — Səh. 4

Avrokuboklarda "final"ın ingilis adı — Səh. 6

## Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu və UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar vergi və gömrük güzəştləri və azadolmalarının tətbiqi üçün təsdiqedici sənədin verilməsi QAYDASI

Azərbaycan Respublikası Prezidentinin
2019-cu il 16 may tarixli
Fərmanı ilə təsdiq edilmişdir

1. Bu Qayda Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (bundan sonra - AFFA) hüquqi və fiziki şəxslərə (bundan sonra - şəxs) Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu və UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar vergi və gömrük güzəştləri və azadolmalarının tətbiqi üçün təsdiqedici sənəd (bundan sonra - təsdiqedici sənəd) verməsi qaydasını müəyyən edir.

2. Təsdiqedici sənəd Azərbaycan Respublikasının Vergi Məcəlləsi (bundan sonra - Məcəllə) və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə (bundan sonra - Qanun) müəyyənləşdirilmiş güzəştləri və azadolmaları əldə etməyə əsas verən sənəddir.

3. Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu və UEFA 2020 Futbol çempionatının oyunları ilə əlaqədar təsdiqedici sənəd yalnız Məcəllədə və Qanunda nəzərdə tutulmuş şəxslərə verilir.

4. Təsdiqedici sənədin verilməsi üçün malların təqdim edilməsi, işlər görülməsi və xidmətlər göstərilməsi, habelə malların idxalı ilə əlaqədar bu Qaydanın 3-cü hissəsində nəzərdə tutulan şəxslərin siyahısını Avropa Futbol Assosiasiyaları Birliyi (bundan sonra - UEFA) təsdiq etməli və elektron qaydada AFFA-ya göndərməlidir. Azərbaycan Respublikası Vergilər Nazirliyinin və ya Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin müraciəti əsasında AFFA-nın malların təqdim edilməsi, işlər görülməsi və xidmətlər göstərilməsi ilə bağlı müqavilələrin surətlərinin təqdim edilməsini UEFA-dan tələb etmək hüququ vardır.

5. Təsdiqedici sənəddə onun verildiyi şəxslərə dair aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

5.1. fiziki şəxsdirsə - adı, atasının adı, soyadı, fərdi identifikasiya nömrəsi (Azərbaycan Respublikasının vətəndaşı olan fiziki şəxslərə münasibətdə), futbol klubunun (assosiasiyasının) oyunçusu və ya işçisi olmasına dair məlumat;

5.2. hüquqi şəxsdirsə - adı, qeydiyyatda olduğu ölkədə vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, ünvanı, UEFA-nın yaratdığı və ya onu təmsil edən, yaxud onun tərəfindən səlahiyyətləndirilmiş hüquqi şəxs olmasına dair məlumat.

6. Təsdiqedici sənəd bu Qayda ilə müəyyən edilmiş tələblər nəzərə alınmaqla UEFA tərəfindən rəsmi təqdim edilmiş siyahıda adları sadalanan şəxslərlə bağlı həmin şəxslərin müraciəti olmadan, UEFA-nın müraciəti əsasında AFFA tərəfindən 3 (üç) iş günü ərzində UEFA-ya və bu Qaydanın 3-cü hissəsində qeyd olunan şəxslərə verilir.

7. AFFA verdiyi təsdiqedici sənədlə birgə aşağıda göstərilən məlumatları da elektron qaydada və ya kağız daşıyıcıda 3 (üç) iş günü ərzində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə təqdim etməlidir:

7.1. xidmət (mal, iş) əldə edən və təqdim edən vergi ödəyicisinin adı;

7.2. xidmət (mal, iş) əldə edən və təqdim edən vergi ödəyicisinin qeydiyyatda olduğu ölkədə vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;

7.3. xidmət (mal, iş) əldə edən və təqdim edən vergi ödəyicisinin rezidenti olduğu ölkə;

7.4. xidmətin (malın, işin) adı;

7.5. xidmətin (malın, işin) məzmunu;

7.6. müqavilənin tarixi;

7.7. müqavilənin nömrəsi;

7.8. müqavilənin dəyəri;

7.9. müqavilənin icrasının başlanma tarixi;

7.10. müqavilənin icrasının bitmə tarixi.

8. Təsdiqedici sənədin formasını AFFA təsdiq edir.

9. Azərbaycan Respublikasının Vergilər Nazirliyi və (və ya) Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi bu Qaydanın 7-ci hissəsində göstərilən məlumatlarda uyğunsuzluq və ya çatışmazlıq aşkar etdikdə və onların aradan qaldırılması mümkün olmadıqda bu barədə AFFA-ya dərhal məlumat verməlidirlər.

10. AFFA bu Qaydanın 9-cu hissəsinə əsasən daxil olmuş məlumatı təsdiq etdikdə təsdiqedici sənədin ləğvi barədə qərar qəbul edir və UEFA-nı, Azərbaycan Respublikasının Vergilər Nazirliyini və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsini dərhal məlumatlandırır.



## Ölkəmizdə keçirilən bədii gimnastika üzrə XXXV Avropa çempionatına yekun vuruldu

Mayın 16-19-da Azərbaycan Gimnastika Federasiyasının (AGF) təşkilatçılığı ilə Bakıda bədii gimnastika üzrə XXXV Avropa çempionatı keçirildi. Azərbaycanda dördüncü dəfə (2007, 2009, 2014) təşkil edilən yarışlarda dünyanın 35 ölkəsindən gimnastlar medallar uğrunda mübarizə apardılar. Dörd gün davam edən Avropa çempionatının fərdi proqramında böyük gimnastlar, qrup hərəkətləri proqramında isə gənc komandalar çıxışlarını nümayiş etdirdilər. Ölkəmizi Avropa çempionatında fərdi proqramda Zöhrə Ağamirova və Veronuka Qudis, qrup hərəkətlərində isə Mədinə Əsədova, Ləman Əlimuradova, Selcan Hacızadə, Milana Əkbərova və Fəridə Səfiyarzadədən ibarət heyət təmsil etdi.

Martın 16-da Milli Gimnastika Arenasında bədii gimnastika üzrə XXXV Avropa çempionatının açılış mərasimi keçirildi.

Əvvəlcə, səhnəyə iştirakçı ölkələrin bayraqları gətirildi.

Avropa Gimnastika İttifaqının (UEG) prezidenti Fərid Qayıbov Avropa çempionatının açılış mərasimində çıxış etdi. UEG-in prezidenti mərasimi giriş sözü ilə açaraq dedi: "Bu gün dördüncü dəfədir ki, Azərbaycanda bədii gimnastika üzrə Avropa çempionatı keçirilir. Həmişə olduğu kimi bu yarış da çox yüksək səviyyədə təşkil olunub. Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının (AGF) prezidenti Mehriban xanım Əliyevaya, Təşkilat Komitəsinin bütün üzvlərinə, könüllülərə, gimnastika azarkeşlərinə öz minnətdarlığımızı bildiririk".

Fərid Qayıbov yarışları açıq elan etdikdən sonra Azərbaycanın Dövlət Himni səsləndi. Himni Əməkdar artist Sevda Ələkbərzadə ifa etdi.



Sonra Azərbaycan gimnastika ustalarının ifasında "Bizim qəhrəmanlar" adlı şou nümayiş etdirildi.

Yarışın ilk iki günündə gimnastlar çoxnövçülük (halqa, top, gürz və lent) üzrə təsnifat yarışlarında qüvvələrini nümayiş etdirdilər. İlk 8-likdə yer alan Azərbaycan, Rusiya, Belarus, Ukrayna, İspaniya, Estoniya və Litvanın qrup komandaları finala vəsiqə qazandılar.

Fərdi proqramda gimnastımız Zöhrə Ağamirova halqa və gürzlərlə finalda yarışmaq imkanı əldə etdi. O, medallar uğrunda rusiyalı əkiz bacılar Dina və Arina Averina, Katrin Taseva (Bolqarıstan), Anastasiya Salos (Belarus), Vlada Nikolçenko (Ukrayna), Yekaterina Vedeneva (Sloveniya) və Nikol Zelikmanla (İsrail) mübarizə apardı. Zöhrə Ağamirova təsnifat yarışlarında gürzlərlə yarışlarda 6-cı (20.800 xal), halqalarla hərəkətlərdə isə 8-ci (20.050 xal) oldu.

Fərdi proqramda çıxış edən digər gimnastımız Veronika Qudisin çıxışı isə finala düşməyə kifayət etmədi.

Mayın 18-də Bakıda keçirilən Avropa çempionatı çərçivəsində komanda hesabında qaliblərin mükafatlandırma mərasimi keçirildi. 1-ci yerə Rusiya komandası layiq görüldü. 2-ci yeri Belarus, 3-cü yeri Bolqarıstan komandası tutdu. Sonra gənclər arasında çoxnövçülük üzrə qrup hərəkətlərində qaliblər müəyyənləşdi. Bu dəfə də ən güclü komanda Rusiya oldu. Gümüş medala Belarus təmsilçiləri layiq görüldülər. İtaliya isə bürünc medal aldı.

Mükafatları qaliblərə Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbov, Azərbaycan Gimnastika Federasiyasının baş katibi Nurlana Məmmədzadə, bədii gimnastika üzrə Azərbaycan yığmasının baş məşqçisi Mariana Vasileva təqdim etdi.

Mayın 19-da, yarışların son günündə final yarışlarına yekun vuruldu.

Gənclərin qrup hərəkətləri proqramında 5 halqa və 5 lentlə hərəkətlərdə qaliblərin adlarına aydınlıq gəldi. Yarışların nəticəsinə əsasən, 5 halqa ilə hərəkətlərdə qalib adını hamıdan güclü olan Rusiya komandası qazandı. Hakimlərdən 24.450 xal alan şimal qonşularımız fəxri kürsünün ən yüksək pilləsində yer aldı. Gümüş medala isə Ukrayna (23.400 xal) kollektivi layiq görüldü. Bürünc medalı isə Belarus (23.250 xal) komandası qazandı.

Gimnastika yarışlarında hamıdan güclü olduğunu sübut edən Rusiya gimnastları 5 lentlə gənclərin qrup hərəkətləri proqramında da 1-ci (21.000 xal) oldular. Müvafiq olaraq 2-ci və 3-cü yerləri İsrail (19.900 xal) və Belarus (19.000 xal) komandaları tutdular.

Böyüklər arasında fərdi proqramda çoxnövçülük (top, halqa, gürz və lent) üzrə ən güclülər də yarışların son günündə müəyyənləşdi. Halqa ilə yarışlarda rusiyalı gimnast Dina Averina (23.300 xal) qızıl medala layiq görüldü. 2-ci yeri Belarus idmançısı Katsariana Halkina (21.150 xal) tutdu. Bürünc medalı isə israilli Nikol Zelikman (20.950 xal) qazandı. Azərbaycan gimnastı Zöhrə Ağamirova isə yarışları 19.875 xalla 6-cı yerdə başa vurdu.

Topla yarışlarda birinciliyi Arina Averina qazandı. Rusiyalı gimnast hakimlərdən 22.850 xal aldı. Gümüş medala da Rusiya təmsilçisi Aleksandra Soldatova (22.050 xal) layiq görüldü. Üçlüyü qapamaq isə Bolqarıstan idmançısı Boryana Kaleynə (21.800 xal) qismət oldu.

Gürzlə yarışlarda yenə də Arina Averina (23.200 xal) fərqləndi. Onun bacısı Dina Averina (22.950 xal) isə 2-ci oldu. Ukrayna gimnastı Vlada Nikolçenko (22.475 xal) ilk üçlüyü tamamladı. Gimnastımız Zöhrə Ağamirova isə 18.950 xalla 8-ci yerdə qərarlaşdı.

Lentlə yarışlarda qızıl medala yenə Dina Averina (20.400 xal) sahibləndi. Digər rusiyalı gimnast Aleksandra Soldatova (20.300 xal) isə ikinci oldu. Bolqarıstanlı Boryana Kaleyn (19.750 xal) bürünc medalı boynundan asdı.

Bakıda keçirilən bədii gimnastika üzrə 35-ci Avropa çempionatı çərçivəsində "SmartScoring Shooting Star" mükafatı təqdim olundu.

Çempionatın tərəfdaşı olan "SmartScoring" şirkətinin təsis etdiyi mükafat Avstriya gimnastı Nikol Rupreçtə verildi. 2001-ci ildən gimnastika ilə məşğul olan gimnast ölkəsində dəfələrlə ilin ən yaxşı qadın idmançısı seçilib. Rio-2016 Yay Olimpiya Oyunlarının iştirakçısı olan N.Rupreçt ardıcıl 7 il Avstriya çempionu adını qazanıb.

Yarışlar başa çatdıqdan sonra gimnastların ifasında Qala-konsert nümayiş etdirildi.

Qala-konsertdən sonra bağlanış mərasimi keçirildi. Azərbaycan Gimnastika Federasiyasının baş katibi Nurlana Məmmədzadə Avropa Gimnastika İttifaqının bayrağını qurumun prezidenti Fərid Qayıbova təqdim etdi. Fərid Qayıbov isə bayrağı növbəti qitə birinciliyinə ev sahibliyi edəcək Ukrayna nümayəndəsinə təhvil verdi.

***Səadət Hakıyeva***

## Bakı-2019-un biletləri satışa çıxarılacaq

Avropa Gənclər Olimpiya Festivalının Əməliyyat Komitəsi ilə "iTicket" bilet satış şirkəti arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb.

Razılığa əsasən, "iTicket.az" şirkəti Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalının rəsmi bilet satışının təminatçısı və dəstəkçisi olub.

Gənclər və idman naziri Azad Rəhimov "iTicket.az" şirkəti ilə razılığın əldə olunmasından məmnunluğunu bildirərək deyib: "Biz açılış və bağlanış mərasimləri üçün ən münasib qiymətləri müəyyənləşdirmişik. Həmçinin bütün idman yarışlarına pulsuz biletlərin olmasını planlaşdırırıq. Ümid edirik ki, bütün bunlar yerli və xarici idman azarkeşlərində festivala daha çox maraq oyadacaq və bu möhtəşəm idman oyunlarını şəxsən izləmələri üçün şərait yaradacaq".

"iTicket.az" şirkətinin baş direktoru Ziya Məmmədov saytın Bakıda keçiriləcək Avropa Gənclər XV Olimpiya Festivalının rəsmi dəstəkçisi olmasından qürur duyduğunu vurğulayıb: "Əvvəlki vaxtlarda keçirilmiş belə beynəlxalq tədbirlərdən əldə etdiyimiz təcrübəmiz bizə Bakı-2019-da öhdəliklərimizi uğurla yerinə yetirəcəyimizə dair inam yaradır".

Festivalın yarışlarına ümumilikdə 146 min bilet satışa çıxarılacaq. Biletlərin təxminən yarısı iyunun 10-dan "Bakı 2019"un rəsmi saytında eyofbaku2019.com və iTicket.az rəsmi saytında satışda olacaq. Bundan başqa, bütün idmansevərlər biletləri "Park Bulvar", "Gənclik", "28 May" ticarət mərkəzlərindən və paytaxtın müxtəlif ərazilərindəki 12 bilet satışı məntəqəsindən əldə edə biləcəklər.

Açılış mərasiminə bir biletin qiyməti 10-15, bağlanış mərasiminə isə 5-10 manat arasında olacaq. Hər iki mərasim "Baku Crystal Hall"da keçiriləcək.

Biletlərin sifarişi və əldə olunması ilə bağlı əlavə məlumat "Bakı 2019"un rəsmi səhifəsində elan ediləcək.

Qeyd edək ki, 2016-cı ildən fəaliyyət göstərən "iTicket.az" konsert, teatr, idman və əyləncəvi təşkilatların bilet satışını onlayn və oflayn qaydada həyata keçirir. 2017-ci ildən etibarən iTicket.az IV İslam Həmrəyliyi Oyunlarının, Formula 1 üzrə Azərbaycan Qran-Prisinin, qadın voleybolçular arasında Avropa çempionatının (2017), UEFA Çempionlar Liqasının qrup mərhələsinin oyunlarının, BMX velosipedi üzrə dünya çempionatının, "Jara-18" beynəlxalq musiqi festivalının, Azərbaycan Cüdo Federasiyasının və AFFA-nın rəsmi bilet təminatçısı və dəstəkçisi olub.

İyulun 21-27-də Bakıda keçiriləcək Avropa Gənclər Olimpiya Festivalında iştirak etmək üçün Azərbaycana 3600-dən çox idmançı və texniki nümayəndə gələcək. Atletlər idmanın 10 növü - gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında qüvvələrini sınayacaqlar. Festival zamanı 12 idman obyektində 2500-dən çox könüllü fəaliyyət göstərəcək.

# Janez Koçijançiç: "Avropa Oyunları Olimpiadadan sonra ikinci əhəmiyyətli turnir olmalıdır"

İyunun 21-dən 30-dək Minskdə II Avropa Oyunları keçiriləcək.

Avropa Olimpiya Komitələrinin prezidenti (AOK) Janez Koçijançiç TASS informasiya agentliyinə müsahibəsində Belarusun turnirə hazırlığını qiymətləndirib, Rusiyanın dünya idmanının inkişafında böyük rolunu qeyd edib, həmçinin yaxın gələcəkdə qış Avropa Oyunlarının keçirilməsi perspektivindən bəhs edib.



*- Artıq Avropa Oyunları ənənəvi tədbirə çevrilir. Bu yarışın perspektivlərini necə görürsünüz?*

- Bizim vəzifəmiz Avropa Oyunlarını Olimpiadadan sonra ikinci əhəmiyyətli multidman tədbirinə çevirməkdir. Biz artıq bu ilin iyununda Minskdə keçiriləcək ikinci Avropa Oyunları ərəfəsindəyik. Oyunlar ənənəvi hal alacaq və yay olimpiadasına bir il qalmış hər dörd ildən bir keçiriləcək.

Düşünürük ki, Avropa Oyunları daha da güclənir. Avropa dünyada ən güclü idman qitəsidir. Burada dünya əhalisinin 10 faizə yaxınının yaşamasına baxmayaraq, yay idman növləri üzrə medalların təxminən 50 faizini avropalı idmançılar qazanır, qış növlərində isə bu rəqəm 70 faizə çatır. Bu faktlar bizim nə qədər güclü olduğumuzu göstərir və gələcəkdə də bu səviyyədə qalmaq istəyirik.

*- Avropa Oyunları AOK-a gəlir gətirirmi?*

- Oyunlardan əldə etdiyimiz gəlirin hamısını onların inkişafına sərf edirik. Lakin başa düşmək lazımdır ki, AOK qeyri-kommersiya təşkilatıdır. Bizim əsas məqsədimiz gəlir əldə etmək deyil, idmanı inkişaf etdirməkdir.

*- Minskin qarşıdakı yarışlara hazırlıq səviyyəsi sizi qane edirmi?*

- Biz belaruslu dostlarımızın işindən və turnirin Təşkilat Komitəsindən çox razıyıq. Belarus yarışların təşkilində zəngin təcrübəyə malikdir. Onlar hokkey və həndbol üzrə bir neçə çempionata ev sahibliyi ediblər. Bu səbəbdən biz cari ildə möhtəşəm Avropa Oyunlarının keçiriləcəyini gözləyirik.

İnkişaf etmiş iqtisadi, mədəni və idman infrastrukturuna malik olan Belarus bu Oyunları keçirməyə layiqdir. Yarışları işıqlandırmaq üçün Minskə minə yaxın jurnalist gələcək və onlar sonra öz materiallarında bütün dünyaya Belarus xalqının qonaqpərvərlindən bəhs edəcəklər. Əminəm ki, Oyunlardan sonra Belarusun imici daha da yaxşılaşacaq və bu ölkə Avropa həyatına əla inteqrasiya edəcək.

Biz Oyunların başlanmasını gözləyirik, bu yarışların uğurla keçirilməsinin qarşısında heç bir maneə görmürük. Qalan bəzi təşkilati məsələlər də ən yaxın vaxtda öz həllini tapacaq və hazırda heç bir problem yoxdur.

*- 2023-cü il Avropa Oyunları harada keçiriləcək?*

- Namizədlərdən müraciətlərin qəbul edilməsinin açıq prosedurası var. Yarışlara ev sahibliyi etmək istəyən bir neçə şəhər mövcuddur. Minsk Oyunları ərəfəsində Avropa Olimpiya Komitələri Baş Assambleyasının növbədənkənar iclası keçiriləcək və orada gələn Oyunlara kimin ev sahibliyi edəcəyi müəyyənləşəcək.

*- 2023-cü il Avropa Oyunlarını keçirməyə iddiaçı olan ölkələr hansılardır?*

- Müraciətlərin qəbulu prosedurası açıq olduğu üçün mən hələlik namizədlərin adlarını açıqlamaq istəmirəm, lakin Oyunlara xüsusi maraq göstərən iki şəhər var (Kazan və Katovitse - TASS-ın qeydi). Səsvermə qapalı keçiriləcək və 50 Olimpiya komitəsi qarşısında namizədlərin adlarını açıqlamaq və kiməsə üstünlük vermək düzgün olmazdı.

*- Minskdəki yarışlarda Rusiya yüngül atletləri də çıxış edəcəklər. Onların qələbəni öz ölkələrinin bayrağı altında qeyd etmək imkanı olacaqmı?*

- Əlbəttə, rusiyalılar qələbəni öz bayraqları altında bayram edə bilərlər, bizim bununla bağlı heç bir şübhəmiz olmayıb. Mən həmişə müxtəlif beynəlxalq təşkilatların təşəbbüslərinə tənqidi yanaşmışam. Onlar hesab edirlər ki, dopinq əleyhinə pozuntulara görə hər hansı bir ölkəni, bu, ABŞ, Rusiya, Çin və ya hər hansı digər dövlət də ola bilər, elə cəzalandırmaq olar ki, gənc idmançılar öz ölkələri üçün qürur hissi keçirə bilməsinlər. Hər bir ölkənin qazandığı uğurları özünün bayrağı və himni altında bayram etmək hüququ var.

*- Rusiyanın 2019-cu il Avropa Oyunlarına iddia etməsi, lakin bunun yüngül atletika üzrə milli federasiyada dopinq problemləri üzündən baş tutmadığı doğrudurmu?*

- Bizim aramızda müxtəlif danışıqlar olub, lakin həmin vaxt Rusiyanın namizəd olacağını düşünmürdük.

*- Sizin planınızda qış Avropa Oyunlarının keçirilməsi məsələsi varmı?*

- Müəyyən təkliflərin olduğunu gizlətmirəm. Bu, mümkündür və bir neçə Avropa ölkəsi var ki, onlar bir dəfə də olsun qış Olimpiadasında iştirak etməyiblər. Lakin əminəm ki, yay Avropa Oyunlarının inkişafı nəticəsində qış Avropa Oyunlarının keçirilməsinin zamanı da gələcək.

*- 1908-ci ildə Londonda keçirilmiş yay Olimpiadasında qış Olimpiya növü olan fiqurlu konkisürmə də proqrama daxil idi. Bəlkə, yaxın perspektivdə Avropa Oyunlarının proqramına örtülü zallarda keçirilən qış idman növləri də daxil ediləcək?*

- Bu məsələ də müzakirə olunur, lakin bizim mövqeyimiz ondan ibarətdir ki, qar və ya buzla əlaqəli olan idman növləri yalnız qış Olimpiadasında, yaxud əgər keçirilərsə, qış Avropa Oyunlarında olmalıdır. Yay idman növləri isə yay Oyunlarına aiddir. Biz Olimpiadanın proqramına daxil edilməyən yeni yay idman növlərini əlavə etməyə çalışırıq və hesab edirik ki, təkcə qədim standartları mütəmadi olaraq təkrar etməli deyil, gənc nəslin maraqlarına uyğun hərəkət etməliyik.

*- AOK və Rusiya Olimpiya Komitəsi arasında münasibətlər necədir?*

- Bizim münasibətlərimiz əladır, mən tez-tez dostum və həmkarım Stanislav Pozdnyakov ilə ünsiyyətdə oluram. Rusiya Olimpiya Komitəsinin dünyada həmişə böyük nüfuzu olub. Bu da tamamilə təbiidir, çünki Rusiya qazanılan Olimpiya medallarının sayına görə dünyada ikinci yeri tutur. Mən AOK və Rusiya Olimpiya Komitəsi arasında yüksək səviyyədə əməkdaşlığa mane olan heç bir səbəb görmürəm.

*- Rusiyanın Avropa idmanı üçün əhəmiyyəti nədir?*

- Rusiya Avropanın ən güclü ölkələrindən biridir və belə də qalacaq. Bu səbəbdən biz onunla müxtəlif komponentlər, o cümlədən Avropa idmanının gələcək inkişafını müəyyən edən təşkilati və peşəkar məsələlər üzrə əməkdaşlığa ehtiyac duyuruq.




# Avropa Gənclər Olimpiya Festivalının Əməliyyat Komitəsi ilə Azərbaycan Televiziyası arasında saziş imzalanıb

Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalının Əməliyyat Komitəsi ilə "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti (AzTV) arasında yayım və tərəfdaşlığa dair saziş imzalanıb.

Sənədi AzTV sədrinin səlahiyyətlərini icra edən Rövşən Məmmədov və Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalının Əməliyyat Komitəsinin korporativ direktoru Elçin Səfərov imzalayıblar.

Sazişə əsasən, festivalın audio və videoçəkiliş materiallarını yayımlamaq və istifadə etmək hüququ AzTV-yə məxsusdur. Bakı- 2019 yarışları yeddi gün ərzində AzTV-də nümayiş olunacaq. Bundan başqa, festivalın açılış və bağlanış mərasimləri, bütün yarışların final mərhələsi və təltifetmə mərasimləri AzTV-nin ekranlarından bilavasitə nümayiş etdiriləcək. Bundan əlavə, audio və videogörüntülər "açıq yayım" vasitəsilə həyata keçiriləcək və beləliklə, tamaşaçılar dünyanın istənilən bölgəsində tezlikləri tənzimləməklə festivalı izləmək imkanı əldə edəcəklər.

AzTV-nin Azərbaycan xalqı üçün milli televiziya və radio kanalı olduğunu qeyd edən Elçin Səfərov bildirib ki, xalqımızın bu tədbirin keçirilməsini və idmançılarımızı dəstəkləməsi çox sevindiricidir. Əməkdaşlıq sayəsində artıq dünyanın istənilən nöqtəsindən festivalı izləmək mümkün olacaq. Ölkəmizə gələcək idmançıların sayı sübut edir ki, Avropa ölkələri Azərbaycanda keçirilən beynəlxalq tədbirlərin səviyyəsindən razıdır və Bakı onlar üçün əsl idman mərkəzidir.

AzTV sədrinin səlahiyyətlərini icra edən Rövşən Məmmədov bildirib ki, Azərbaycan Televiziyası ölkəmiz üçün XV Avropa Gənclər Olimpiya Festivalı kimi mühüm tarixi hadisəni yayımlayacağı üçün çox məmnundur. Belə mötəbər idman hadisəsinin yüksək səviyyədə yayımlanması üçün AzTV bütün resurslarından istifadə edəcək.

Xatırladaq ki, Avropa Gənclər Olimpiya Festivalı iyulun 21-27-də Bakıda keçiriləcək. Yarışlarda iştirak etmək üçün Azərbaycana 3600-dən çox idmançı və texniki nümayəndə gələcək. Atletlər idmanın on növü - gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında qüvvələrini sınayacaqlar. Festival zamanı 12 idman obyektində 2500-dən çox könüllü fəaliyyət göstərəcək.

# AMADA-nın direktoru Avropa Şurasının işçi qrupunun sədr müavini seçilib

Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) direktoru Şəfəq Hüseynli Avropa Şurasının "İnsan hüquqları və idmançılar" üzrə xüsusi işçi qrupunun sədr müavini seçilib.



Bu barədə qərar Avropa Şurasının Antidopinq Konvensiyası üzrə monitorinq qrupunun Buxarestdə keçirilən 50-ci iclasında qəbul edilib.

"İnsan hüquqları və idmançılar" qrupunun tərkibinə sədr, sədr müavini və səkkiz ölkənin nümayəndələrindən ibarət üzvlər daxildir. Həmçinin İnsan Hüquqları üzrə Avropa Məhkəməsi, Venesiya Komissiyası, Beynəlxalq Olimpiya Komitəsi və Avropa Şurasının digər təşkilatlarının nümayəndələri də qrupun tərkibinə daxil ediləcəklər. Əlavə olaraq, Avropa İttifaqı, UNESCO və Ümumdünya Antidopinq Agentliyi (WADA) müşahidəçi qismində öz nümayəndələrini təyin edəcək.

Qrupun əsas məqsədi antidopinq qaydalarının tətbiqi zamanı idmançıların hüquqlarının səmərəli müdafiəsi, onların ədalət mühakiməsinə maneəsiz çıxışı, insan hüquqlarının idmanda dopinqə qarşı mübarizədə qorunması və bu sahədə digər sənədlərin və təkliflərin hazırlanmasıdır.

Həmçinin Ş.Hüseynli WADA üzrə Ad Hoc Avropa Komitəsinin (CAHAMA) 46-cı iclasında da iştirak edib.

Avropa Şurasının Antidopinq Konvensiyası 1989-cu ildə qəbul edilib. Azərbaycan bu sənədi 2002-ci ildə imzalayıb.

* * *

Azərbaycan Milli Antidopinq Agentliyi Bakıda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan paracüdo üzrə beynəlxalq Qran-Pri yarışlarında dopinqlə mübarizə sahəsində dünyada ilk olaraq innovativ təşviqat proqramını təqdim edib.

36 ölkədən 400-dən çox qonağın iştirak etdiyi turnir üçün hazırlanan xüsusi təşviqat proqramı çərçivəsində Azərbaycan və ingilis dillərində Brayl əlifbası ilə çap edilmiş üç növ məlumatlandırıcı materiallar və testlər hazırlanıb və paylanılıb.

Həmçinin AMADA dünyada ilk dəfə olaraq görmə imkanları məhdud idmançılar üçün interaktiv audio əsaslı "iQuiz" antidopinq viktorina sistemini hazırlayıb. Beş sualdan ibarət bu xüsusi qurğu onların məhdud imkanlarını nəzərə alaraq dopinqlə mübarizə sahəsində biliklərini yoxlamağa imkan verir. Hər düzgün cavab bir "vazari" xalı, hər səhv cavab isə "şido" cəriməsi ilə nəticələnir. İki səhv cavab verən iştirakçı məğlub olur. Ən azı dörd sualı düzgün cavablandıran cüdoçu isə "ippon", yəni, qələbə qazanır.

Yarışda iştirak edən idmançılar, o cümlədən ikiqat Paralimpiya çempionumuz İlham Zəkiyev, bir sıra milli və xarici idmançılar turnirin keçirildiyi günlərdə antidopinq biliklərini nümayiş etdirərək AMADA-dan xüsusi hədiyyələr qazanıblar.




# *Atletimiz üçtəkanla tullanma yarışında üçüncü yeri tutub*

Yaponiyanın Osaka şəhərində atletikanın bütün növləri üzrə keçirilən beynəlxalq turnirdə Azərbaycanı Nazim Babayev (üçtəkanla tullanma) və Anna Skidan (çəkicatma) təmsil ediblər. Nazim Babayev çempionatda müvəffəqiyyətlə çıxış edərək yay mövsümünə uğurla start verib.

Qış mövsümünü üçtəkanla tullanma üzrə Avropa çempionu kimi başa vuran atletimiz nüfuzlu "IAAF World Challange Seiko Golden Grand Prix Osaka 2019" turnirində 16,48 metr məsafəyə tullanmaqla fəxri kürsünün üçüncü pilləsinə qalxıb. Yarışda amerikalı Omar Kreddok qızıl medalın sahibi olub. Çinli atlet Yaminq Zu isə gümüş medala layiq görülüb.

Çəkicatma yarışında çıxış edən Anna Skidan isə 71,5 metr nəticə ilə altıncı pillədə qərarlaşıb.

* * *

Avropa Gənclər Olimpiya Festivalına hazırlıq çərçivəsində Beynəlxalq Atletika Federasiyasının, Milli Olimpiya Komitəsinin, Bakı-2019 Əməliyyat Komitəsinin və Azərbaycan Atletika Federasiyasının birgə təşkilatçılığı ilə atletika hakimləri üçün keçirilən seminara mayın 17-də yekun vurulub.

Birinci seminarda 27 nəfər iştirak edib. Onlardan 21-i imtahandan keçərək sertifikatla təltif edilib. Üç iştirakçı isə seminarı ehtiyat hakim kimi başa vurub.

# Dillər və Slavyan Universitetləri tələbələrinin OCEP-ə töhfələri




***Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi ölkənin ali məktəbləri ilə bir çox sahələrdə əməkdaşlıq edir. Son illər bu əməkdaşlıq istiqamətlərindən biri də Olimpiya mədəniyyəti və təhsili sahəsini əhatə edir. Qeyd etmək lazımdır ki, Azərbaycan Milli Olimpiya Komitəsində tələbələrin istehsalat təcrübəsi keçməsi ənənə şəklini almışdır.***

MOK-da istehsalat təcrübəsi keçən tələbələrlə iş elə qurulmuşdur ki, bu, gənc mütəxəssislərin Olimpiya və idman sahəsində yeni biliklər almasına, MOK-un fəaliyyətini, ümumiyyətlə Olimpiya Hərəkatını, xüsusən də Azərbaycan Olimpiya Hərəkatını, ölkəmizin Olimpiya Oyunlarında iştirakı tarixini öyrənməsinə kömək edir. Eyni zamanda təcrübə müddətində tələbələr beynəlxalq Olimpiya qurumlarının, başqa ölkələrin Milli Olimpiya Komitələrinin tarixi və fəaliyyəti ilə də yaxından tanış olurlar. İstehsalat təcrübəsinin hər iki tərəf üçün qarşılıqlı səmərəli keçməsi məqsədilə tələbələr müxtəlif proqramlarda iştirak etməyə, Olimpiya və idman mövzularında fərqli mövzularda təqdimatlar hazırlamağa, tərcümə işlərinə, könüllü fəaliyyətinin əsaslarını öyrənməyə cəld olunurlar.

İstehsalat təcrübəsinin ilk günlərində MOK-da tələbələr üçün "Olimpiya Hərəkatı və Olimpiya Oyunları, Azərbaycan Milli Olimpiya Komitəsi" mövzularında mühazirə - təqdimat təşkil olunur. Bundan sonra tələbələr MOK-un müxtəlif idarələrinə təhkim olunur, onlara fərdi tapşırıqlar verilir. İstehsalat təcrübəsinin sonuna qədər tapşırıqların yerinə yetirilməsi nəzarət altına alınır, mütəmadi yoxlama və sınaqlar keçirilir. Sonda bütün tapşırıqların qəbulu həftəsi təşkil olunur. Tələbələrin işləri və MOK-dakı fəaliyyəti qiymətləndirilir.

2019-cu ildə Azərbaycan Dillər və Bakı Slavyan Universitetlərindən Azərbaycan Milli Olimpiya Komitəsinə 30-a yaxın tələbə istehsalat təcrübəsinə göndərilmişdi. 3 aydan artıq müddəti əhatə edən bu ilki istehsalat təcrübəsi dövrü Bakıda keçiriləcək Avropa Yeniyetmələrinin Olimpiya Festivalı ilə əlaqədar Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondunun dəstəyi, Azərbaycan Milli Olimpiya Komitəsinin təşəbbüsü ilə hazırlanmış "Olimpiya mədəniyyəti və təhsili" (OCEP) layihəsinin reallaşdırılması dövrünə təsadüf etdi.

Azərbaycan Milli Olimpiya Komitəsinin Avropa Gənclər Olimpiya Festivalının mədəniyyət proqramını yaratmaq və Azərbaycan təcrübəsinin gələcək festivalların da tərkib hissəsinə çevrilməsi məqsədilə hazırladığı OCEP layihəsi Beynəlxalq və qitə Olimpiya qurumları tərəfindən rəğbətlə qəbul edilmişdir.

OCEP - Olimpiya Mədəniyyəti və Təhsil Proqramının başlıca məqsədi, bir tərəfdən, Avropa Olimpiya Komitələrinə üzv ölkələrin yeniyetmə və gəncləri arasında qitə xalqlarının mədəniyyətinə, idmanına, həmçinin Olimpiya Hərəkatına aid məlumatları yaymaq, Olimpiya təhsili verməkdir. Digər tərəfdən, məqsəd həm də idman və mədəniyyətin vəhdətindən istifadə etməklə dostluq, həmrəylik, qarşılıqlı anlaşma şəraitində yaşamaq, bir-birini öyrənib təbliğ etmək ruhunu yaymaqdır. Bu prosesin son dərəcə fəal, səmərəli, birbaşa və distant əlaqələr zəminində reallaşması üçün OCEP proqramı və 2019-cu ilin iyulunda Azərbaycanda keçiriləcək Avropa Gənclər Olimpiya Festivalı hər cür imkan və şərait yaradır.

Azərbaycan Milli Olimpiya Komitəsinin Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondu və Azərbaycan Təhsil Nazirliyi ilə birgə təşkil etdiyi OCEP proqramında aşağıdakı vəzifələr qarşıya qoyulmuşdu: 1) Avropa ölkələrindən və Azərbaycandan 49 məktəb seçməklə onlar arasında ünsiyyət yaratmaq; 2) qardaşlaşmış məktəblərin məlumat və təcrübə mübadiləsi üçün xüsusi təyinatlı, multilinqivistik sosial media platformasını yaratmaq və idarə etmək; 3) Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalını Azərbaycan və Avropa məktəblərinin vasitəsilə təşviq etmək; 4) Olimpizm və Olimpiya dəyərlərini təbliğ etmək.



Azərbaycan Milli Olimpiya Komitəsinə Dillər və Slavyan Universitetlərindən istehsalat təcrübəsinə gələn tələbələrin ixtisasca regionşünas olması nəzərə alınaraq bu dəfə onları OCEP Proqramı çərçivəsində fəaliyyətə cəlb etmək qərara alındı. Tələbələrə təcrübə dövründə Avropa dövlətləri haqqında ətraflı təqdimatlar hazırlamaq tapşırığı verilmişdi. Tapşırığa görə, hər tələbə Avropanın bir ölkəsi üzrə təqdimat tərtib etməli idi. Bu da Avropa ölkələrinin maksimum əhatə olunması məqsədi güdürdü. MOK-da tələbələrlə birgə fəaliyyətin bu şəkildə qurulması OCEP proqramı çərçivəsində qardaşlaşmış məktəblərə informasiya yardımı etməyi nəzərdə tuturdu. Tələbələrin hazırladıqları təqdimatlar MOK-da aprobasiyadan keçdikdən sonra tələbələrin özlərinin iştirakı ilə məktəb siniflərində, zallarında nümayiş ediləcək və beləliklə, Avropa ölkələri haqqında məlumatların daha geniş yayılması təmin olunacaqdı. Məhz bu məqsədi əsas götürərək MOK-da ölkə haqqındakı təqdimata ölkənin tarixi, dili, mədəniyyəti, milli mətbəxi, milli musiqisi, ədəbiyyatı, iqtisadiyyatı, təhsil sistemi, idmanı, Olimpiya Hərəkatı bölmələrinin daxil edilməsi məqsədəuyğun sayılmışdı.



Mayın 3-də Milli Olimpiya Komitəsinin inzibati binasında təcrübə keçən tələbələrin təqdimatlarının ilk nümayişi keçirildi. Təqdimatda Azərbaycan Dillər Universiteti və Bakı Slavyan Universitetinin tələbələri, istehsalat təcrübəsi rəhbərləri və Milli Olimpia Komitəsinin əməkdaşları iştirak etdilər.

Daha əvvəl Avropanın bir sıra ölkələri haqqında təqdimatlara baxılmışdı. Mayın 3-də isə tələbələr 8 Avropa ölkəsinin tarixi, mədəniyyəti, incəsənəti, Olimpiya Oyunlarında iştirakı və başqa sahələri barədə məlumatları, həmçinin bu ölkələrə aid maraqlı faktları təqdim etdilər. Həmin toplantıda Almaniya, İspaniya, Rusiya, Yunanıstan, İsveçrə, Niderland, Vyetnam və Norveç haqqında ətraflı təqdimatlar nümayiş etdirildi. Onu da qeyd edək ki, bu sırada Vyetnamın yer alması tələbələrdən birinin həmin ölkədən olması ilə bağlı idi.

Təqdimat mərasimi Şəhanə Osmanovanın Almaniya haqqında olan çıxışı ilə başladı. Azərbaycan Dillər Universitetinin tələbəsi Avropanın inkişaf etmiş ölkəsinin tarixi, mədəniyyəti, keçmişi və müasir dövrü barədə müfəssəl məlumat verdi. Almaniyanın yay və qış Olimpiya Oyunlarında iştirakından danışıldı, bu sahəyə aid maraqlı faktlar qeyd olundu. Təqdimatda müasir Almaniyanın iqtisadiyyatına, mədəniyyət və incəsənətinə, təhsil sisteminə də yer ayrılmışdı.

Azərbaycan Dillər Universitetinin tələbəsi Murad Abdullayev İspaniya haqqında ətraflı məlumat verdi. O, İspaniyanın coğrafiyası, demoqrafik vəziyyəti, tarixi, təhsil sistemi və Olimpiya oyunlarında iştirakı kimi əsas məsələlərə toxundu. İspaniyanın təhsilindən və tanınmış universitetlərindən öz təqdimatında bəhs etdi. İngilis dilində hazırlanmış bu təqdimatda din məsələlərinə də toxunuldu.

Azərbaycan Dillər Universitetinin tələbəsi Könül Rəşidli Rusiya haqqında ətraflı danışdı. Rus dilində keçən bu təqdimatda Rusiyanın tarixi, əhalisi, təbii şəraiti haqqında geniş məlumat verildi. Ölkənin adət-ənənələrindən, milli geyimlərindən bəhs olundu. Rusiyanın Olimpiya oyunlarında iştirakı, qazandığı medallar, Moskva Olimpiya Oyunları barədə də bu təqdimatda bir sıra məlumatlar açıqlandı.

Bakı Slavyan Universitetinin tələbəsi Validə Rəhimlinin Yunanıstan haqqındakı təqdimatı da maraqla qarşılandı. Tələbə göstərdi ki, Yunanıstan qədim tarixə malik bir ölkədir. Bu dövlət dünyaya ümumbəşəri dəyər daşıyan bir çox töhfələr vermişdir. Onların sırasında Yunanıstanın incəsənəti, memarlığı ilə yanaşı, qədim, antik Olimpiya Oyunları da möhtəşəm yer tutur. Təqdimatda ölkənin ərazisi, əhalisi, tarixi haqqında məlumat verildi. Yunanıstan Olimpiya oyunlarının vətəni kimi də diqqəti cəlb edir. Yunanıstanda Olimpiya oyunlarının yaranması, dayandırılması, yenidən bərpasından sonra ilk Olimpiya oyunlarının Afinada keçirilməsi haqqında məlumat verildi. Olimpiya məşəlinin yandırılması ənənəsi haqqında danışıldı.

Bakı Slavyan Universitetinin tələbəsi Gündüz Məmmədov İsveçrə haqqında məlumatla çıxış etdi. Onun təqdimatında İsveçrənin təbii şəraiti, tarixi, təhsil sistemi və Olimpiya oyunlarında iştirakı ilə bağlı məlumat verildi.

Bakı Slavyan Universitetinin tələbəsi Gülay Tağızadənin təqdimatı Niderlanda həsr olunmuşdu. Təqdimatda ölkənin ərazisi, əhalisi, mədəniyyəti, incəsənəti və Olimpiya oyunlarında iştirakı haqqında danışıldı.

Bakı Slavyan Universitetinin tələbəsi Pham Anh Ngoc istisna hal kimi Avropa ölkəsi olmayan Vyetnam haqqında təqdimatla çıxış etdi. Bu ölkənin təmsilçisi vətəninin adət-ənənələri, tarixi, milli geyimləri, mətbəxi haqqında ətraflı danışdı, maraqlı faktları dinləyicilərin nəzərinə çatdırdı.

Bakı Slavyan Universitetinin tələbəsi Üfiq Əliyev Norveç haqqında məlumat verdi. O, təqdim etdiyi ölkənin ərazisi, əhalisi, tarixi, mədəniyyəti və Olimpiya oyunlarında iştirakı haqqında danışdı.

Təbii ki, bir ölkənin tarixindən tutmuş onun mətbəxinə, mədəniyyətinə qədər araşdırıb vacib və maraqlı faktları qeyd etmək olduqca mürəkkəbdir. Buna baxmayaraq, tələbələr onlara tapşırılmış işin öhdəsindən gələ bildilər.

Milli Olimpiya Komitəsinin informasiya və nəşriyyat idarəsinin müdiri Cəmaləddin Rəhmanov, komitənin marketinq idarəsinin müdiri Mehman Kərimov toplantıda nümayiş etdirilən təqdimatlar barədə dəyərləndirmə apardılar, tələbələrə irad və arzularını bildirdilər, bu təqdimatların OCEP proqramı çərçivəsində məktəblərdə nümayişinin vacibliyini qeyd etdilər.

***Şahanə Osmanova,***
***Murad Abdullayev,***
***Validə Rəhimli***

Bakı Dillər və Slavyan Universitetinin MOK-da istehsalat təcrübəsi keçən tələbələri

## Millimiz Mançesterdən iki medalla qayıdır

Böyük Britaniyanın Mançester şəhərində taekvondo üzrə böyüklər arasında dünya çempionatı keçirilib. Dünya çempionatında 10 idmançı ilə mübarizə aparan millimiz yarışı bir qızıl və bir bürünc medalla başa vurub. Komandamıza ilk medalı Fəridə Əzizova qazandırıb. Qadın taekvondoçumuz 67 kq çəki dərəcəsində bürünc medala yiyələnərək fəxri kürsünün üçüncü pilləsində yer alıb.

Yarışın sonuncu günündə millimizin titullu idmançılarından olan Milad Beigi Hərçəqani 80 kq çəki dərəcəsində ikincə dəfə dünya çempionu olub. Təmsilçimiz mərhələ döyüşlərində Kuba, Fransa, Moldova və Koreya idmançılarını üstələyərək finala vəsiqəni təmin edib. İdmançımız həlledici döyüşdə yunanıstanlı Apostolos Telikostoqlou da 22:12 hesabı ilə məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb və Azərbaycanın dövlət himnini səsləndirib.

Qeyd edək ki, Milad ilk dünya çempionluğunu 2017-ci ildə Koreyanın Muju şəhərində qazanıb. O, 2015-ci il Avropa Oyunlarının qalibi, dünya kubokunun ikiqat sahibi (Meksika 2015-ci il, Bakı 2016-cı il), 2016-cı ilin Avropa çempionu (İsveçrənin Montrö şəhəri) və Rio-2016 Yay Olimpiya Oyunlarının bürünc mükafatçısıdır. Taekvondoçumuz Taypey-2017 Universiada Oyunlarının, Bakı - 2016 Qran-Pri turnirin qalibidir. İdmançımız əvvəllər Rabat - 2017 Qran-Pri turnirin bürünc medalına, Çində keçirilmiş Usi-2017 "Böyük dəbilqə" turnirin bürünc mükafatına da sahib olub.




Qeyd edək ki, yığmamız yarışlarda Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidentləri Nağı Səfərov və Niyaməddin Paşayev, eləcə də, baş məşqçilər Reza Mehmandoust və Elnur Amanovun rəhbərliyi ilə iştirak edib.

## Paracüdo üzrə beynəlxalq Qran-Pri turniri uğurla yekunlaşdı

Bakıda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan paracüdo üzrə beynəlxalq Qran-Pri yarışlarına yekun vurulub. Turnirin sonuncu günündə Azərbaycan millisi 1 gümüş və 1 bürünc medal qazanıb.

Kişilərin yarışında Rövşən Səfərov (90 kq) moldovalı Oleq Kretula qalib gələrək dörddəbir finala yüksəlib. Paracüdoçumuzun növbəti rəqibi Türkiyə idmançısı İbrahim Bölükbaşı olub. Rəqibini üç saniyə ərzində ipponla məğlub edən R.Səfərov yarımfinala vəsiqə qazanıb. Növbəti görüşdə dünya çempionu, Rio-2016-nın gümüş medalçısı ukraynalı Aleksandr Nazarenkonu da üç saniyə ərzində ipponla məğlub edən idmançımız adını finala yazdırıb. R.Səfərov həlledici görüşdə İran idmançısı Vahid Nouriyə uduzaraq gümüş medalla kifayətlənməli olub.

Qadınların yarışında idmançımız Xanım Hüseynova (63 kq) bürünc medal uğrunda görüşdə türkiyəli Duyğu Cete Artara qalib gələrək turniri üçüncü pillədə başa vurub.

Xatırladaq ki, turnirin birinci günündə paracüdoçularımız millimizin aktivinə 3 qızıl, 3 gümüş və 3 bürünc medal yazdırıblar. Beləliklə, turnirdə 3 qızıl, 4 gümüş və 4 bürünc medal qazanan Azərbaycan millisi komanda hesabında ikinci yeri tutub.



Qran-Prinin qalibi adını aktivində 4 qızıl və 4 bürünc medal olan Özbəkistan seçməsi qazanıb. Ukrayna 1 qızıl, 1 gümüş və 2 bürünc medalla üçüncü olub.

Heydər Əliyev adına İdman Sarayında keçirilən turnirdə 35 ölkədən 214 cüdoçu birincilik uğrunda mübarizə aparıb. Turnirdə ölkəmizi 21 cüdoçu təmsil edib. Kişilərin yarışında 11, qadınların mübarizəsində isə 10 idmançımız tatami üzərinə çıxıb. Qran-Pri Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarına lisenziya xalları qazandırıb.

Bizim müsahibə

# ““Azərbaycan bayrağı” şeirim mükafata layiq görülüb”

***“Olimpiya dünyası” qəzeti öz səhifələrində yalnız idmançılara, məşqçilərə, hakimlərə deyil, həm də digər sənət, peşə adamlarına, yaradıcı insanlara da yer ayırır. İndiyədək xeyli sayda teatr, kino aktyorları, müğənnilər, şairlər redaksiyamızın qonağı olublar. Onların içində xalq və əməkdar artistlər də az olmayıb. Belə insanlardan Həsən Məmmədov, Ramiz Əzizbəyli, Yaşar Nuriyev, Tariyel Qasımov, Yasin Qarayev və başqalarının adlarını çəkə bilərik.***

***Budəfəki qonağımız tanınmış şair, Prezident təqaüdçüsü Dayandur Tağıyevdir (təxəllüsü Sevgindir). Dayandur müəllimlə onun 60 illik yubileyi ərəfəsində görüşdük. Qonağımız bizə ömür yolundan, yaradıcılığından, idmana olan marağından danışdı.***



***- Dayandur müəllim, istərdik sizi yaxından tanıyaq.***

- 1959-cu ildə İmişli rayonunun Əlipənahlı kəndində doğulmuşam. 1969-cu ildə ailəmiz mal-qara saxladığı üçün Kür qırağına köçmüşük. Bizim kəndin camaatı əsasən, heyvandarlıqla məşğul olurdu. Sovet hökumətinin qayda-qanunlarına görə, kolxozda heç kəs iki inəkdən, 5 qoyundan artıq təsərrüfat saxlaya bilməzdi. Bu səbəbdən bizim ailə və bəzi qohumlarımız Kür qırağındakı kəndə köçməyə məcbur oldular. Bura ada kimi bir yer idi və rayon mərkəzindən xeyli aralıda yerləşirdi. Çox çətin dövr idi və camaat yaşayış, güzəran üçün çox əziyyətə qatlaşmalı olurdu. Burada məktəbi qamışdan-palçıqdan özümüz tikmişdik. Kəndimizdə məktəb dövlət tərəfindən müstəqillik illərində inşa edildi.

### “Ailənin yükü mənim çiynimdə idi”

8-ci sinfə qədər burada oxudum. Sonra orta məktəbi bitirmək üçün 2 il hər gün qayıqla Kürü keçərək Zərdab rayonunun Nardanlı kəndinə gedirdim. Orta məktəbi müvəffəqiyyətlə bitirdim. Məzun olanda atam rəhmətə getdi. Biz çoxuşaqlı ailə olmuşuq - 7 bacı, 3 qardaş. Evin böyük oğlu olduğum üçün ailənin yükü mənim çiynimdə idi. Əsgəri xidmətimi başa vurduqdan sonra kəndimizdə fəaliyyət göstərən neft qazma idarəsində işə düzəldim. Əvvəlcə burada 2 ay laborant işlədim. Maaşım digər işçilərin məvacibi ilə müqayisədə çox az idi. Bir dəfə idarənin rəisi rəhmətlik Yusif Xankişiyevin yanına getdim ki, maaşımı artırsın. Ona dedim ki, insafınız olsun, mən 120 manat maaşla 7 bacımı necə köçürəcəyəm?. Rəis də qayıtdı ki: “sən cavansan, axı, boyun da hündür. Səni qüllənin başına necə çıxaraq? Yıxılıb, şikəst olarsan”. Dedim ki, narahat olmayın, mən dözümlüyəm. Bu hadisədən sonra maaşımı artırdılar və beləcə, 6 il orada işlədim. Bu müddət ərzində həm bacılarımı köçürdük, həm evimizi tikdik. Artıq özüm haqda düşünməyin vaxtı çatmışdı. Sənədlərimi politexnik texnikumunun qiyabi şöbəsinə verdim və qəbul oldum. Ali təhsilimi Bakıya köçdükdən sonra Kamal Abdullanın köməyi sayəsində Bakı Slavyan Universitetində, yaradıcılıq fakültəsində almışam.

***- Nə vaxt yazmağa başlamısınız?***

- Şeirlərimi gənclik dövründən yazıram. Amma ilk dəfə 8-ci sinifdə oxuyanda hekayə yazmışdım. Amma uğursuz oldu. Qonşu Zərdab rayonunun Mərdanlı kəndinin klubuna kino gətirmişdilər. O vaxt belə şeylər yox idi. Mən də həmin kinoya baxmağa getmişdim. Bu kino mənə o qədər təsir eləmişdi ki, hekayə yazmaq qərarına gəldim. Bu, İmran Qasımov və Həsən Seyidbəylinin “Uzaq sahillərdə” filmi idi. Mən hekayəmdə Veselinin adını dəyişdirib Vasya eləmişdim. Yaralı Veselinlə Anjelikanın görüşdüyü ağacı isə akasiya kimi yazmışdım. Hekayəni sinifdə oxuyanda əvvəlcə müəllim güldü, sonra uşaqlar. Bu, mənə pis təsir etdi və bir daha yazmadım. Bir də qələmi əlimə əsgəri xidmətdən qayıdandan sonra aldım. O vaxt İmişli rayonunda ədəbi birlik var var idi. Bura Səyyad Aran, Qəşəm Nəcəfzadə, Cabir Savalan, Ağasəlim Hacıyev və başqaları gəlirdilər. İlk şeirimi 1980-ci ildə yazmışam. 1984-cü ildə Bakıya köçdüm və yaradıcılığım üçün daha yaxşı şərait yarandı. 1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvüyəm.

***- İndi çap olunmaq üçün hər bir şərait yaradılıb. Bəs o vaxt necə?***

- Həmin vaxt şeirlərini çap etdirmək və ədəbi məclislərdə iştirak etmək asan deyildi. Ciddi senzura var idi. Bəlkə də buna görə daha yaxşı, oxunaqlı şeirlər yazılırdı. Bu gün bəzi gənclər çox tənbəldirlər, öz üzərilərində işləmək və hər şeyi asanlıqla əldə etmək istəyirlər.

Bir dəfə İmişli rayon komsomol komitəsinin gənclər üzrə ədəbi birliyində Məmməd İsmayılın gecəsi keçirilirdi. Həmin gecədə mən də öz şeirlərimi oxudum. Məmməd İsmayıl da daxil olmaqla, əksəriyyət şeirlərimi bəyəndi.

### “Vətən haqqında xeyli sayda şeirlərim var”

***- Həmin dövrdə Arazın o tayı ilə bağlı şeirlər daha çox yazılırdı?***

- Həmin dövrdə yarıya bölünmüş iki Azərbaycan arasında sərhədlər bağlı idi. İnsanlar həsrət çəkirdilər. Yaxşı yadımdadır, 1981-ci ildə Azərbaycan Yazıçılarının Qurultayı keçirilirdi. Qurultayda çıxış edən ümummilli lider Heydər Əliyev üzünü yazıçı və şairlərə tutub dedi: “Ay yazıçılar və şairlər, niyə dərdimizdən, Təbrizdən yazmırsınız?. Yazın da, axı biz, dövlət rəhbərləri deyəndə, iki dövlət arasında narazılıq yaşanır”. Dahi şəxsiyyətin bu çıxışından sonra vətən həsrəti ilə bağlı çoxlu əsərlər yazıldı.

***- Vətən haqqında şeirlər yazmağa sizi vadar edən nədir?***

- Vətən anadır. Anaya necə şeir həsr eləməyəsən?! Mən vətənimi çox sevirəm. Onun suverenliyi, dövlətçiliyi üçün canımdan keçməyə hazıram. Bacardığım qədər işimlə, əməlimlə, şeirlərimlə vətənimə xidmət edirəm. Vətən haqqında xeyli sayda şeirlərim var. Onladan biri də “Azərbaycan bayrağı” şeiridir. Bu şeirimə Azərbaycan Dövlət Televiziyasının “Mədəniyyət” kanalı tərəfindən videoçarx hazırlanıb. Həmin kanalın keçirdiyi müsabiqədə “Azərbaycan bayrağı” şeirim mükafatala da layiq görülüb.

***- İndiyədək neçə kitabınız işıq üzü görüb?***

- İndiyə qədər təxminən 350 şeirim və 7 kitabım çap olunub.

***- Sizin üçün həyatda ən dəyərli şey nədir?***

- Vətənim, ailəm, sevdiyim iş. Yaradıcı insanın ən böyük əsəri elə onun ailəsidir.

***- Vətəni niyə sevirik?***

- Vətəni vətən olduğu, bizi qoynunda saxladığı, bəslədiyi üçün sevirik. Məmməd Araz demişkən:

Heç bir mükafatın yetmədi mənə,
Bircə “sağ olun” da bəsimdi, vətən!
Bəsimdir, hər səhər təltif yerinə
Qapımda küləyin əsibdi, vətən!

***- Dayandur müəllim, siz həm də “Kaspi” qəzetində çalışırsınız?***

- 2000-ci ildən “Kaspi” qəzetində çalışıram. Bu qəzetin mənim yaradıcılığımda böyük rolu var.

### Olimpiya çempionuna şeir yazdı

***- İdmana münasibətiniz necədir?***

- Futbolu çox sevirəm. Gəncliyimdə “Neftçi” futbol klubuna azarkeşlik etmişəm. İndi isə “Qarabağ”a azarkeşlik edirəm. Ağdam klubunun UEFA Çempionlar Liqasında oynamağı qürurverici idi. Xarici klublardan isə İspaniyanın “Barselona” komandasını xoşlayıram. Demək olar ki, bu komandanın bütün oyunlarını izləyirəm. “Barselona” çox güclü komandadır. Komandanın lideri olan Messi meydanda bütün ruhu ilə oynayır. Digər oyunçular da elə. Sevimli komandamın “Liverpul”a uduzmasından çox məyus oldum. Fransanın “PSJ” klubuna böyük hesabla qalib gələndə isə uçmağa qanadım yox idi.

Voleybolu da çox sevirəm və vaxtilə rayon komandasında oynamışam. Şahmatla da maraqlanıram.

***- Elnur Məmmədli haqqında şeir yazmısınız?***

- Cüdoçumuz Elnur Məmmədli Pekin-2008 Olimpiadasının finalında cəmi 13 saniyəyə rəqibini məğlub edib çempion olanda çox fərəhləndim və ona bir şeir yazdım. Həmin şeir “Səninlə fəxr edir, ay Elnur, vətən” adlanır.

Cəsarət istəyir hər keçilməz dağ,
Hünərin gör neçə inadı qırdı.
Başının üstündə ucalan bayraq,
Sandım ki, Şuşada dalğalanırdı.
Önündə baş əydim bu şücaətin,
Səninlə fəxr edir, ay Elnur, Vətən!
Bir qürur yerisən, sən bu millətin,
Xalqın bayramıdır sənin qələbən.

***- Əksəriyyət uşaqlar Səttar Zərdablının “Kim sevirsə idmanı” şeiri ilə böyüyüblər. Necə düşünürsünüz, niyə indi uşaqlarla bağlı idman şeirləri demək olar ki, yazılmır?***

- Səttar Zərdablı çox vətənpərvər və yaradıcı insan idi. Doğrudan da, onun bu şeirinə yazılmış musiqi dillər əzbərinə çevrilmişdi. Təəssüf ki, ədəbiyyatımızda və musiqimizdə idman mövzusuna çox az müraciət olunur.

***- Deyirlər, şairlər dərddən yazır...***

- Şair şeirlərində ancaq öz dərdindən yazmır. Cəmiyyətin, millətin taleyindən, dərdlərindən yazır. Bugünkü gündə ən böyük dərdimiz Qarabağ dərdidir, hansı ki, içimizi göynədir. Xalqımız xain qonşunun şərinə düşüb və bu şərdən qurtara bilmir. Hamımız inanırıq ki, ölkə rəhbərinin, Ali Baş Komandanın rəhbərliyi altında işğal altında olan torpaqlarımız işğaldan azad ediləcək və öz yurd-yuvasını tərk edənlər geri qayıdacaqlar.

***Səadət Hakıyeva***

Bölgə idmanı

## Xaçmazda futbol üzrə rayon birinciliyi keçirilib



Xaçmazda ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş futbol üzrə rayon birinciliyinin qalibi müəyyənləşib.

Xaçmaz Olimpiya İdman Kompleksində keçirilən final qarşılaşmasında Yalama və Ləcət bələdiyyələrinin komandaları mübarizə aparıblar.

16 komandanın qatıldığı birincilkdə finaladək inamla irəliləyən Yalama kollektivi bu matçda da rəqibinə heç bir şans verməyib. Ləcət komandasına 6:0 hesabı ilə qalib gələn kollektiv yarışın qalib adını qazanıb.

Final matçını üç minə yaxın futbol azarkeşi izləyib.

Xaçmaz Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilən yarışda çempion komandaya kubok və medallar təqdim olunub.

* * *

Balakən Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə məktəblilər arasında keçirilən stolüstü tennis üzrə rayon birinciliyinə yekun vurulub.

Balakən Rayon Gənclər və İdman İdarəsinin və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 52 oğlan və qız idmançı mübarizə aparıb.



Oğlanların yarışında Ruslan Varsayev, Məhəmməd Məmmədov və Murad Lokov, qızlar arasında isə Məleykə Nastakalova, Sarat Məmmədova və Ceylan Dabaxova müvafiq olaraq birinci, ikinci və üçüncü yerləri tutublar.

Birinciliyin qalibləri mükafatlandırılıblar.

## NTV kanalında Formula 1 Azərbaycan Qran-Prisi ilə bağlı reportaj yayımlanıb

Rusiyanın NTV kanalının məşhur “Əsas yol” (Qlavnaya doroqa) proqramında Formula 1 SOCAR Azərbaycan Qran-Prisinə həsr olunmuş “Formula Bakı” adlı xüsusi reportaj yayımlanıb.

Reportajda buyaxınlarda Bakıda artıq dördüncü dəfə keçirilmiş Formula 1 yarışının yaddaqalan məqamlarından ətraflı söz açılıb. Videosüjetdə qədim Bakının koloritli mənzərələrinin, onun möhtəşəm panoramasının, memarlıq incilərinin, heyrətamiz sahil bağının nümayiş etdirildiyi kadrlar bir-birini əvəzləyir.

Müxbir Alina Mozqova trekdə baş verənləri şərh edərək deyir: “Bura adi günlərdə adi maşınların hərəkət etdiyi geniş prospektdir, lakin bu gün burada sürət üçün heç bir məhdudiyyət yoxdur”.

Aparıcı fikrini davam etdirərək əlavə edir: “Birbaşa şəhər küçələrində Formula 1. Pilotlar buranı “dəlisov” tras adlandırırlar. İldə bir dəfə Bakının mərkəzində saatda 300 kilometrdən çox sürət göstərmək olar”.

Formula 1-in pilotları da unudulmayıb. Daniil Kvyat: “Bakı trası yürüşçülərə əməlli-başlı meydan oxuyur. Belə ki, burada sürət çox yüksək, döngələr olduqca çoxdur. Buna görə də yürüşlər həmişə çox maraqlı və həyəcanlı alınır”.

Aparıcı haqlı olaraq qeyd edir: “Azərbaycan Qran-Prisini ən maraqlı yürüşlərdən biri adlandırırlar. Axı trasların heç də hamısı qədim şəhərin minillik divarlarının böyründən keçmir”.

Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov deyir: “Biz elə əvvəldən Formula 1 üçün yeni yer qismində Bakını şəhər yürüşü kimi təklif etdik. Bizim şəhər kənarında məxsusi olaraq yeni trek inşa etmək niyyətimiz olmayıb”.

Aparıcı sözləri ilə davam edir: “Azərbaycan həmişə qonaqpərvərliyi ilə şöhrət qazanıb. Burada o qədər qonaq var ki! Əsl bayramdır. 85 min adam üç şəhər yürüşündən birini öz gözü ilə görməyə gəlib. Axı belə yürüş bir də yalnız Monako və Sinqapurda keçirilir”.

Bakıda hər addımbaşı qarşıya çıxan turistlər öz təəssüratlarını bölüşərək deyirlər: “Bu, bizim Formulaya tamaşa etmək üçün ilk səfərimizdir və biz çox güclü təəssürat altındayıq. Buranın çox yaxşı və mehriban insanları var. Çox qonaqpərvər ölkədir. Bura bizim xoşumuza gəlir”.

“Baku City Circuit”in icraçı direktoru Arif Rəhimov belə deyir: “Biz bu yaxınlarda kartinq trasını açdıq. Bizim çox böyük maraqlarımız var, xüsusən daha gənc nəslin nümayəndələrinin. Nə bilmək olar, bəlkə gələcəkdə onlara da Formula 1-də yarışmaq səadəti nəsib olacaq”.

Yürüşlər, Bakı və bakılılar, şəhərimizin qonaqları haqqında maraqlı, dinamik və rəngarəng reportaj ilk baxışda çox adi başa çatır: “Bakı artıq yeni yürüşlərə hazırlaşır. Adi şəhər küçələrinin nə dərəcə hamar və sürətli olduğunu hamıya göstərmək olduqca xoşdur”.

Lakin Bakıya və ölkəmizə sevgi ilə hazırlanmış gözəl və nikbin reportaj fonunda bu sözlər lap yerində səslənir. Axı süjetin son nöqtəsini elə bakılıların özləri qoyur: “Bakıya gəlin. Bakı sizi sevir. Bakı sizi gözləyir”.

# FUTBOL

# Avrokuboklarda “final”ın ingilis adı

***Kim necə düşünürsə, düşünsün, bu gün dünyada bir güclü çempionat var - İngiltərə Premyer Liqası. Bu turnirdə hər şey var. Sürət, dinamika, aqressiya və rəqabət. Buna görə də hazırda kürənin milyonlarla futbol azarkeşi İngiltərədə keçirilən matçları izləyir. Burada hakimlər hər xırda qayda pozuntusuna görə oyunu saxlamır. Burada VAR sistemi yoxdur (ola bilsin növbəti mövsümdən olsun-A.Ə) ki, futbolçular hər xırda məqama görə penalti tələb etsinlər. Burada matçlarda tək bir top olur ki, sanki məhəllə futbolunu xatırladır. VAR olmasa da “Goal Line” sistemi var ki, top qapıdan keçən kimi, hakimin qolundakı saata “qol” sözü yazılır.Məhz bu inkişafın nəticəsidir ki, Premyer Liqanın 4 komandası qitənin ən nüfuzlu iki yarışında finala vəsiqə əldə ediblər. Maraqlı deyil?***

***Məhz bunu nəzərə alaraq, “Olimpiya dünyası” qəzeti İngiltərə Premyer Liqasına həsr olunmuş yazını oxucularına təqdim edir.***

## İngiltərədə çempion olmaq çox çətindir




İngiltərə Premyer Liqasında çempionluq uğrunda mübarizəyə start veriləndə “Mançester Siti”nin baş məşqçisi maraqlı fikirlər söyləyərək, bütün diqqətləri öz üzərinə çəkmişdi. “Mən bu vaxta qədər Avropanın aparıcı çempionatlarında məşqçilik etmişəm. Lakin etiraf edim ki, İngiltərədə çempion olmaq çox çətindir. Bu çempionatda asan və mübarizə aparmayan komanda yoxdur. Heç bir qarşılaşmada qələbəni arxayın qazanmaq mümkün deyil. Aşağı pillələrdə qərarlaşan və debütant olan komanda belə liderləri büdrədə bilər”, - deyə ispaniyalı mütəxəssis bildirmişdi. Quardiolanın dedikləri doğru çıxdı. İngiltərə çempionatı gərgin və maraqlı keçdi. Digər çempionatlardan fərqli olaraq, Premyer liqanın qalibi son turda müəyyənləşdi. “Şəhərlilər” ən yaxın izləyicisi - “Liverpul”u cəmi 1 xal qabaqlaya bildilər. Mütəxəssislərin fikrincə İngiltərə çempionu olmaq yerli klublar üçün daha önəmli sayılır. Lakin Çempionlar Liqasında baş mükafata sahib olmaq isə hər bir klubun arzusudur. 1/4 finala qədər keçirdiyi bütün görüşləri uğurla başa vuran komandanın qarşısını elə öz həmyerliləri kəsdi. Söhbət “Tottenhem”dən gedir. Neçə ildir ki, Çempionlar Liqasında arzusunu həyata keçirə bilməyən “Mançester Siti” yenə də bu estafeti uğursuz başa vurdu. Yalnız “Barselona” ilə ÇL-in qalibi olan Pep Almaniyada olduğu kimi, İngiltərədə də ondan kubok gözləyən azarkeşləri məyus etdi. Görünür, ispaniyalı baş məşqçi karyerasında yalnız “Barselona”nın qazandığı kubokla təskinlik tapacaq. “Mançester Siti”nin ÇL-də qələbə qazanması yaxın bir neçə ildə mümkün olmayacaq. Əgər “Liverpul” və yaxud “Tottenhem” qitənin ən nüfuzlu turnirində qalib olsa, “şəhərlilər”in tələbi daha da artacaq. Quardiola isə elə bir məşqçidir ki, ondan nəsə tələb edəndə, o, bu tələbə fikir vermir. Tezliklə həmin yerdən uzaqlaşır. Yəqin ki, növbəti mövsümdə ÇL-in kuboku qazanılmasa, Pep özü Mançesteri tərk edəcək.



## Əgər sənin komandan Bakıda oynamırsa..

Bakı və bakılılar haqqında şüursuz danışan Yürgen Klopp baş məşqçi kimi qazandığı nüfuzunu bir qədər itirdi, desək, yanılmarıq. Görünür, onun dünya görüşü futboldan və stadiondan o tərəfə keçmir. Sual verilə bilər ki, əgər sənin komandan Bakıda oynamırsa, sənin Bakının Avropa Liqasının finalına ev sahibliyi etməsi barəsində dediyin sözlər nəyə lazımdır? Sən hələ bilmirsən “Metropolitano”da qələbə qazanacaqsan, ya yox, artıq özündən hündürə boylanırsan. Əgər “Barselona” yarımfinalda arxayınlıq etməsəydi, Ernesto Valverdenin məşqçi taktikası olsaydı, sənin komandanın finalda izi-tozu olmazdı. Söz yox ki, “Liverpul” güclü futbolçulardan ibarətdir. Əgər belə olmasa idi, aparıcı futbolçular olmadan qələbə qazana bilməzdi. Bilmirəm bunu bəlkə də bəxt amili ilə əlaqələndirmək olar. Bir daha qeyd edim ki, “Barselona” yalnız arxayınlıq və komandadakı intizamsızlıq səbəbindən “Enfild”i məğlubiyyətlə tərk etdi. Klopp 2015-ci ildən bəri hələ komandasına bir kubok belə qazandırmayıb. Amma onun uzun dili var. Bu almana yəqin ki, kimsə başa salacaq ki, Bakı və bakılılar həm qonaqpərvərdir, həm də hörmət saxlayandır. Bunu beynəlxalq yarışlarda - Bakı-2015 I Avropa Oyunlarına, Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarına gələn avropalıların əvəzinə İngiltərədə oturub, Bakı haqqında ağlına gələni deyirsə, görünür, özündən başqa heç kimi və heç yeri tanımır. Olsun, Maurissio Sarri, ya da Unay Emeri Bakıya gəlib, qayıdandan sonra Klopp fürsət tapıb onlarla görüşər, həmin həmkarlarının Bakı təəssüratlarını öyrənər. Yəqin dünya şöhrətli karikaturaçı Omar Momaninin Kloppa verdiyi mesaj ünvanına çatmayıb.






## Kürsüsüz “zadəganlar”

İngiltərədə “Çelsi”ni bəxti gətirməyən klub kimi tanımaq olar. Komandanın nə qədər güclü futbolçuları olsa belə, yenə də “zadəganlar” yüksək kürsüdə əyləşə bilmirlər. 1952-ci ildən bu günə qədər 15 məşqçi ilə müxtəlif titullara malik olan “Çelsi” bu mövsüm çempionluq imkanlarını əldən verdi. Komanda 72 xalla Premyer Liqada üçüncü pillədə qərarlaşdı. Bu o deməkdir ki, “Çelsi” növbəti mövsümdə UEFA Çempionlar Liqasında çıxış edəcək. Bu mövsüm komanda da bir sıra anlaşılmazlıqlar oldu. İtaliyalı baş məşqçi ilə “Çelsi” çox aşağı səviyyədə çıxış etdi. İstər evdə, istərsə də səfərdə Sarrinin komandası mühüm xallar itirdi. Güclü heyətə malik olmasına baxmayaraq, “zadəganlar” iki cəbhədə vuruşa bilmədilər. Premyer Liqada güclü rəqabətə davam gətirə bilməyən komanda daha çox diqqəti UEFA Avropa Liqasına yönəltdi. Komandanın bu planı özünü doğrultdu. “Çelsi” Liqanın finalında oynamaq imkanı əldə edib. Maraqlıdır ki, onun rəqibi də eyni şəhərin digər təmsilçisi “Arsenal”dır. Finala vəsiqə əldə etməsinə baxmayaraq, “Çelsi”nin daxilində ciddi problemlər hökm sürür. Qeyd olunduğu kimi, heyətin əksər üzvləri baş məşqçi ilə ortaq məxrəcə gələ bilmir, onunla hesablaşmaq istəmir. Sanki heyətdə bir nüfuzlu futbolçu var ki, bütün komanda onun sözləri ilə oturub-durur. Belə bir qruplaşma olan kollektivdə heç bir çempionluqdan söz açmağa dəyməz. Sarrinin indi bir şansı var. O da, Bakıda qələbə qazanıb, kuboku əldə etmək. Əgər belə olmasa, onda Sarri 1952-ci ildən bu günə kimi “Çelsi”də mükafat qazanmayan məşqçi olacaq. Bu həm onun, həm də klubun tarixinə antirekord kimi yazılacaq.



## Mübariz kollektivin Avropanın ən güclü klubu olmaq şansı

“Tottenhem” də bu il öz gücündən çox az istifadə edən bir klub kimi yadda qaldı. Bir il ərzində demək olar ki, futbolçu transferi etməyən komanda öz gücünə oynadı. Onu da qeyd edək ki, komanda üçün yeni futbol arenası tikilir. Bu səbəbdən “Tottenhem” heyətini gücləndirmək üçün maliyyə vəsaiti tapa bilmədi. Hətta komandanın aparıcı futbolçusu Harri Keynin zədəli olmasını da diqqətdən qaçırmaq olmaz. Lakin Poçettinonun mübariz kollektivi Premyer liqada ilk altılıqdan kənarda qalmadı. Eyni zamanda ötən mövsümdə ÇL-də işini yarımçıq qoyan “Tottenhem” bu dəfə finala vəsiqə əldə edib. “Mançester Siti”ni mübarizədən kənarlaşdıran “mahmızlar” Avropanın ən güclü klubu olmaq şansı qazanıb. Əgər “Liverpul” səddini keçəsələr, onda “Tottenhem” tarixində ilk dəfə Çempionlar Liqasının qalibi adını qazanacaq. Əslində hər şey onlardan asılıdır. “Liverpul” Premyer Liqada “Tottenhem”ə qalib gəlsə də, ÇL-in finalında hər şey fərqli olur. “Mahmızlar” bunu bu mövsüm dəfələrlə təkrar ediblər. Onlar matçda geridönüş etməyi bacaran kollektivlərdən sayılırlar. “Tottenhem”in baş məşqçisi yaxşı bilir ki, belə bir imkan bir daha ələ düşməyəcək. Çünki gələn mövsümdə rəqiblər bu ilki kimi yarışa “dırnaqarası” yanaşmayacaqlar.

## Xatirəyə çevrilən çempionluq

“Arsenal”ın tarixi uğursuzluqları deyəsən, geridə qalır. Amma bunu Premyer Liqaya aid etmək olmaz. Arsen Vengerlə ölkə çempionatında “sürgün həyatı yaşayan topçular” bir balaca dirçəlməyə doğru gedir. Əgər belə olmasa idi, “topçular” UEFA Avropa Liqasında finala vəsiqə əldə etməzdilər. Biz onların yüksəlişini Olimpiya stadionunda açıq-aşkar görmək imkanı əldə etmişik. Vengerin həmyerlisi Unay Emeri uzun illərdən sonra komandaya böyük uğur qazandıra bilər. Bakıdakı “London derbisi” bütün suallara aydınlıq gətirəcək. Lakin “Arsenal” azarkeşləri üçün Premyer Liqada sonuncu dəfə 2003-2004-cü ildə əldə olunan qalibiyyət bir xatirəyə çevrilib. Tələbkar ingilislər komandanın yenidən həmin nailiyyəti təkrarlamasını tələb edirlər. Lakin nəzərə alsaq ki, bu, Premyer Liqadır, burada çempion olmaq asan deyil, onda klub rəhbərliyi daha mütərəqqi layihələr üzərində işləməlidirlər. Əks halda Unay Emeri kimi bir neçə baş məşqçi öz vəzifəsindən getməli olacaq.

## Öz işini nizama sala bilməyən “qırmızı şeytanlar”

“Mançester Yunayted” haqqında da bu il xoş sözlər demək mümkün olmadı. Komandanın Premyer Liqada 6-cı yeri tutması “qırmızı şeytanlar” üçün uğursuz



nəticə hesab olunur. Heyətində ulduz futbolçular olmasına baxmayaraq, “Mançester Yunayted” etimadı doğrulda bilmədi. Liqanın ortalarında Mourinyonu yola salıb, Ule Qunnar Sulşeri baş məşqçi gətirən komanda rəhbərliyi ardıcıl olaraq bir neçə qarşılaşmada qələbə qazandı. Çoxları düşündü ki, “qırmızı şeytanlar”ı dayandırmaq olmayacaq. Amma “qırmızı şeytanlar”ın özləri dayandı. Nəticədə çempionluq imkanları tükəndi, Çempionlar Liqasında çıxış bərbad oldu. PSJ kimi klubu mübarizədən kənarlaşdırsa da, onlar “Barselona” səddini aşa bilmədilər. Ümumiyyətlə, “Mançester Yunayted” Premyer Liqada öz işini nizama sala bilməyən komandalardan sayılır. Çox güman ki, növbəti mövsümdə də “Mançester Yunayted” eyni aqibəti yaşayacaq. Hətta aparıcı futbolçuların klubu tərk edəcəyi də, istisna deyil.

***Anar Əhmədov***

# FUTBOL

## “Qəbələ” ilə “Qalatasaray” eyni gündə qələbəyə sevindi



Futbol üzrə bir sıra ölkələrdə ölkə çempionu və kubokun sahibləri müəyyənləşib. Həmin komandalar qazandığı nailiyyətlərdən sonra növbəti mövsümdə qitəmiqyaslı yarışlarda iştirak etmək hüququ əldə edib.

### “Qəbələ” tarixində ilk

Azərbaycan kubokunda 2018-2019 mövsümünün qalibi müəyyənləşib.Naxçıvan Muxtar Respublikası stadionunda keçirilən həlledici matçda “Qəbələ” və “Sumqayıt” üz-üzə gəlib. Matç “Qəbələ”nin 1:0 hesablı qələbəsi ilə başa çatıb. Bununla da klub tarixində ilk titulunu qazanıb.

Qeyd edək ki, “Qəbələ” ölkəmizi Avropa Liqasında təmsil edəcək.

19 may

***Azərbaycan kuboku, final***

**17:00. “Qəbələ” - “Sumqayıt” - 1:0**
**Qol:** Stiven Monroz, 4
**Qırmızı vərəqə:** Cavid Tağıyev, 90+6 (“Sumqayıt”)
**Hakimlər:** İnqilab Məmmədov, Rahil Ramazanov, Pərvin Talıbov, Səbuhi Bayramov
***Naxçıvan Muxtar Respublikası stadionu***

### Türkiyə çempionluğuna yaraşan qələbə

Türkiyə Superliqasında 2018-2019 mövsümünün qalibi müəyyənləşib. 33-cü turun mərkəzi oyununda 66 xalla zirvədə yer alan “Qalatasaray” doğma azarkeşləri önündə eyni xalla 2-ci pillədə qərarlaşan “Başakşəhər”i qəbul edib. “Türk Telekom Arena”dakı matçda 2:1 hesablı qələbə qazanan “cimbom” sona bir tur qalmış çempionluğunu rəsmiləşdirib. Qeyd edək ki, bu, “sarı-qırmızılılar”ın ardıcıl ikinci, ümumilikdə isə 22-ci çempionluğu olub. İstanbul klubu bu mövsüm Türkiyə kubokunu da qazanıb.

19 may

**“Qalatasaray” - “Başakşəhər” - 2:1**
**Qollar:** Bajiç, 17 (0:1), Fequli, 47 (1:1), Onyekuru, 64 (2:1)




### Almaniyanın “ən güclü”sü dəyişmədi

Almaniya Bundesliqasında 2018/2019 mövsümünün qalibi müəyyənləşib. Münhenin “Bavariya” klubu son turda “Ayntraxt”a 5:1 hesabı ilə qalib gələrək 78 xalla ardıcıl 7-ci, ümumilikdə isə 29-cu dəfə ölkə çempionu olub. Komandanın qollarını Kinqsli Koman, Renato Sançes, Frank Riberi, Aryen Robben, David Alaba vurub.

Son turda Münhenqladbax “Borussiya”sına 2:0 hesabı ilə qalib gələn Dortmund “Borussiya”sı 76 xalla 2-ci yerlə kifayətlənib. “Leyptsiq” isə 66 xalla 3-cü olub. Beləliklə, “Bavariya”, “Borussiya” (Dortmund), “Leyptsiq” və 4-cü olan “Bayer” (Leverkuzen) ÇL-in qrup mərhələsində oynamaq hüququ qazanıb. Münhenqladbax “Borussiya”sı (5-ci yer), “Volfsburq” (6-cı yer) və “Ayntraxt” isə Avroliqada çıxış edəcəklər. Qeyd edək ki, Bundesliqa ilə “Nürnberq” və “Hannover” vidalaşıb. “Ştutqart” isə elitada qalmaq üçün pley-off-da oynayacaq.



### “Uembli”də qol yağışı

İngiltərə kubokunda 2018/2019 mövsümünün qalibi müəyyənləşib. “Uembli” stadionunda keçirilən final oyununda “Mançester Siti” və “Uotford” üz-üzə gəlib. Matç Pep Qvardiolanın komandasının 6:0 hesablı qələbəsi ilə başa çatıb.

Beləliklə, Mançester təmsilçisi 8 ildən sonra bu turnirin qalibi olub.

Qeyd edək ki, bu, “Siti”nin 2018/2019 mövsümündə qazandığı üçüncü kubok olub. Komanda bundan əvvəl İngiltərə Liqa kubokunun və Premyer Liqanın qalibi olub.

**“Mançester Siti” - “Uotford” - 6:0**
**Qollar:** Silva, 26, Sterlinq, 38, De Brüyne, 61, Jezus, 68, Sterlinq, 81, 87

### Portuqaliyada yeni çempion

Portuqaliya Premyer Liqasında 2018/19 mövsümünün qalibi müəyyənləşib. Sonuncu - 34-cü turda evdə “Santa Klara”nı 2:1 hesabı ilə məğlub edən “Benfika” xallarını 87-yə çatdıraraq çempion olub. Lissabon təmsilçisi ən yaxın izləyicisi “Portu”nu 2 xal qabaqlayıb. “Benfika” tarixi ərzində 37-ci çempionluğunu qazanıb. Bu, Portuqaliyada rekord göstəricidir.

### İtaliyada da kubok öz sahibini tapdı

Ötən həftə İtaliya kubokunun qalibi müəyyənləşib. Həlledici oyunda “Latsio” ilə “Atalanta” qarşılaşıb. Roma təmsilçisi 2:0 hesablı qələbə ilə kuboka sahib çıxıb. Bu, “Latsio”nun 7-ci ölkə kubokudur.

15 may

**“Latsio” -“Atalanta” - 2:0**
**Qol:** Milinkoviç-Saviç, 82, Korrea, 90




## UEFA Avro-2020-də bilet neçəyə olacaq?

UEFA Avro-2020-nin final mərhələsinin biletlərinin qiymətlərini açıqlayıb. Ən ucuz biletlər Bakı, Budapeşt (Macarıstan) və Buxarest (Rumıniya) şəhərlərində keçiriləcək oyunlaradır.

Bu qarşılaşmalar üçün 3-cü kateqoriyalı bilet 30, 2-ci kateqoriyalı bilet 75, 1-ci kateqoriyalı bilet isə 125 avroyadır.

Ən bahalı bilet isə Londonda keçiriləcək final matçınadır - 945 avro. İngiltərənin paytaxtında yarımfinal matçlarının biletləri 85-595, final oyunu üçün isə 95-945 avro olacaq.

Azarkeşlər üçün ümumilikdə 2.5 milyon bilet ayrılıb. 12 iyun - 12 iyul tarixlərində 1.5 milyon bilet Euro-2020.com saytında satışa çıxarılacaq. Digər 960 min bilet isə pley-off-da mübarizə aparacaq millilərin azarkeşləri üçün nəzərdə tutulub. Bu biletlər noyabrın 30-da - püşkatmadan sonra satışa çıxarılacaq.

Hər bir şəxs maksimum 4 bilet ala və bir gün ərzində yalnız 1 oyuna baxa bilər.

Qeyd edək ki, Avropa çempionatının oyunları 2020-ci il iyunun 12-dən iyulun 12-dək 12 şəhərdə keçiriləcək. Qrup mərhələsinin 3, 1/4 final mərhələsinin isə 1 oyunu Bakı Olimpiya Stadionunda olacaq.

## *Transfer xəbərləri*

“Mançester Siti”nin kapitanı Vensan Kompani komandanı tərk edir.

Bu barədə “şəhərlilər”in rəsmi saytı məlumat yayıb. İngiltərə kubokunun “Uotford”la dünən keçirilən oyunu (6:0) belçikalı müdafiəçinin Mançester təmsilçisində sonuncu matçı olub.

Qeyd edək ki, 2008-ci ildən “Mançester Siti”nin formasını geyinən Kompani 4 dəfə İngiltərə çempionu, 2 dəfə İngiltərə kuboku, 4 dəfə Liqa kuboku, 2 dəfə isə İngiltərə Superkubokunun qalibi olub. 2011-ci ildən kapitanlıq sarğısını daşıyan 33 yaşlı futbolçu “Siti”də ümumilikdə 360 oyun keçirib və 20 qol vurub.

* * *

Peru millisinin sabiq üzvü Klaudio Pisarro “Verder”lə yeni müqavilə imzalayıb. Bundesliqa klubunun saytında yayılan xəbərə görə, 40 yaşlı hücumçu ilə müqavilənin müddəti 2020-ci ilin iyununa qədər uzadılıb. Qeyd edək ki, Pissaro Bundesliqada qol vuran ən yaxşı futbolçudur. O, 40 yaş 213 günlüyündə Dortmund “Borussiya”sının qapısına yol tapıb.

* * *

PSJ qapıçısı Canluici Buffona yeni müqavilə təklif edib. Bu barədə 41 yaşlı qolkiperin özü məlumat verib. O, yaxın günlərdə klub rəhbərliyi ilə görüşəcəyini və təklifi müzakirə edəcəklərini bildirib.

Qeyd edək ki, Buffon ötən ildən Paris təmsilçisində oynayır.

* * *

“Yuventus” baş məşqçisi Massimiliano Alleqri ilə yolları ayırıb.

Bu haqda klubun rəsmi saytı məlumat yayıb. Belə bir qərarın verilməsinin səbəbi açıqlanmayıb. İstefa ilə bağlı Alleqri və klubun Direktorlar Şurasının sədri Andrea Anyelli sabah mətbuat konfrası keçirəcək.

Xatırladaq ki, Alleqri 2014-cü ildən “Yuventus”da çalışdırıb. Onun rəhbərliyi altında turinlilər dalbadal 5 dəfə İtaliya çempionu, 4 dəfə İtaliya kuboku, 2 dəfə ölkə superkubokunun qalib olub.

* * *

“Atalanta”nın baş məşqçisi Can Pyero Qasperini mövsümün sonunda “Roma”nın sükanı arxasına keçə bilər. 61 yaşlı mütəxəssis paytaxt klubunu çalışdırmağa razılıq verib. İtalyalı çalışdırıcı ilə 3 illik müqavilə bağlanacağı gözlənilir. Onun illik gəliri bonuslarla birlikdə 2.5 milyon avro olacaq.

Qeyd edək ki, “Roma”nın hazırkı baş məşqçisi Klaudio Ranyerinin müqaviləsi mövsümün sonunda başa çatacaq.

* * *

“İnter” futbolçusu Milan Skrinyarla müqaviləni uzadıb.

Slovakiyalı müdafiəçinin yeni razılaşması 2023-cü ilin yayına qədərdir. Qeyd edək ki, 2017-ci ildən “İnter”in şərəfini qoruyan Skrinyarın əvvəlki müqaviləsi 2022-ci ilin yayına qədər idi.

“Çelsi”ni klubun sabiq futbolçusu Frenk Lempard çalışdıra bilər.

Britaniya mətbuatının yaydığı xəbərə görə, London təmsilçisinin rəhbərliyi istefaya göndərməyə planlaşdırdığı baş məşqçi Maurisio Sarrinin yerini F.Lempardla doldurmağı planlaşdırır. Qeyd edək ki, yerli azarkeşlərin komandanın oyunundan narazılığını nəzərə alan “Çelsi”nin sahibi Roman Abramoviç 60 yaşlı mütəxəssislə yolları ayırmaq istəyir. Əlavə edək ki, F.Lempard hazırda İngiltərə Çempionşip təmsilçisi “Derbi Kaunti”ni çalışdırır.

## *UEFA Avropa Liqasının kuboku Gəncədə*

UEFA Avropa Liqasının kuboku Gəncəyə gətirilib.

Mayın 19-da UEFA Avropa Liqasının kuboku Nizami yurduna gətirilib və Heydər Əliyev adına Meydanda futbol azarkeşləri və ictimaiyyət qarşısında nümayiş olunub.

Avropa Liqasının təbliğat və kommersiya üzrə meneceri Tural Piriyev bildirib ki, tədbirin təşkilində məqsəd mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək Avropa Liqasının final oyununda təqdim olunacaq kubokla idmansevərləri tanış etməkdir.

Kubokun ictimaiyyətə təqdimatından sonra maraqlı konsert proqramı təşkil edilib. Gənc musiqiçilər və rəqs qrupları özlərinin maraqlı ifaları ilə tamaşaçılar qarşısında çıxış ediblər.




Tədbir çərçivəsində, həmçinin maraqlı əyləncəli oyunlar, yarışmalar və viktorinalar təşkil olunub. Viktorinanın qalibinə final oyununun 2 bileti hədiyyə verilib.

Qeyd edək ki, mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək finalda İngiltərənin “Arsenal” və “Çelsi” komandaları qarşılaşacaq.



## Velosipedçilərimiz Türkiyədə uğurla yarışıblar

Türkiyədə Beynəlxalq Velosipedçilər İttifaqının 2.2 kateqoriyalı "Qara Dəniz Turu"na yekun vurulub. Sonuncu, 3-cü mərhələdə də inamla çıxış edən velosipedçilərimiz bununla da Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xallarımızı xeyli artırıblar.

İlk 2 mərhələdə müvafiq olaraq 2-ci və 3-cü olan Samir Cəbrayılov bu dəfə 170 km məsafəni 3 saat, 45 dəqiqə, 55 saniyəyə keçən 10 nəfərlik qrupun içində yer alıb və fotofinişə əsasən 4-cü olub. Məhz bu nəticə təmsilçimizə ümumi təsnifatda 2-ci yerini qorumağa və bununla da Olimpiadaya 30 lisenziya xalı qazanmağa imkan verib. Samir 1-ci və 2-ci mərhələlərdə ölkə reytinqinə müvafiq olaraq 3 və 1 xal da əlavə etmişdi.

Milli komandamızın digər üzvü Elçin Əsədov isə "Qara Dəniz Turu"nu ümumi təsnifatda 10-cu yerdə başa vurmaqla reytinqimizi daha 3 xalla zənginləşdirib. Xatırladaq ki, mayın əvvəlində Türkiyədə keçirilən digər bir yarış - "Tour of Mesopotamia"da da Elçin Əsədov ümimi təsnifatda 10-cu olmaqla 3 reytinq xalı qazanmışdı.

## Pəhləvanlarımız təlim-məşq toplanışındadırlar

Güləş üzrə milli komandanın üzvləri təlim-məşq toplanışında iştirak edirlər.

Yunan-Roma güləşi üzrə yığmamız Göygöl Olimpiya İdman Kompleksində hazırlıq keçir. İyunun 1-dək davam edəcək hazırlıq prosesində baş məşqçi Şaban Donat, böyük məşqçi Rövşən Bayramov, məşqçilər Emin Əhmədov və Turac Hüseynlinin rəhbərliyi altında 23 güləşçi iştirak edir. Təlim-məşq toplanışı gələn ay Belarusun paytaxtı Minskdə keçiriləcək II Avropa Oyunlarına hazırlıq xarakteri daşıyır.

Sərbəst güləşçilərimiz də Göygöldə təlim-məşq toplanışındadırlar. Göygöl Olimpiya İdman Kompleksində keçirilən hazırlıq prosesi mayın 30-dək davam edəcək. Baş məşqçi Saypulla Absaidov, böyük məşqçi Zəlimxan



Hüseynov, məşqçilər Arif Abdullayev və Sadruddin Ayqubovun rəhbərliyi altında toplanışda 15 güləşçi yer alıb.

Yeniyetmə qızlardan ibarət güləş yığmamız Ukraynada məşq keçir. Krivoy-Roq şəhərində hazırlıq keçən yığmamız mayın 26-da vətənə qayıdacaq. Böyük məşqçi Həsrət Məmmədyarovun rəhbərliyi altında 7 yeniyetmə güləşçi qarşıdakı məsul yarışlara hazırlığı davam etdirir. Yerli güləşçilərlə birgə baş tutan toplanışda həm fiziki, həm də taktiki-texniki məşqlər keçirilir. Qeyd edək ki, təlim-məşq toplanışı gələn ay İtaliyada keçiriləcək Avropa çempionatına və iyulda ölkəmizdə təşkil olunacaq Avropa Gənclərinin Yay Olimpiya Festivalına hazırlıq xarakteri daşıyır.



## "Təhsil liqası"nın qalibləri məlumdur

Mayın 17-də Azərbaycan Texniki Universitetinin (ATU) idman zalında basketbol üzrə "Təhsil liqası"nın final mərhələsi keçirilib. Yarışda ümumilikdə 24 komanda iki yaş qrupunda mübarizə aparıb. Yekun nəticələrə görə U-15 yaş qrupunda 2 saylı RİOEUGİM birinci olub. 9 saylı UGİM-in basketbolçuları gümüş medallarla mükafatlanıblar. 10 saylı UGİM kollektivi isə üçüncü yeri tutub. U-13 yaş qrupunda isə "Sıçrayış" komandası birinci yerə layiq görülüb. 2 saylı RİOEUGİM və 10 saylı UGİM isə müvafiq olaraq, ikinci, üçüncü yerləri tutublar.

Qaliblərə kubok və medallar təqdim olunub.

## *"Judo Club 2012"nin yetirməsi Avropa kubokunun qalibi oldu*

Mayın 18-19-da Rusiyanın Orenburq şəhərində cüdo üzrə Avropa kuboku yarışları keçirilib. 24 ölkədən 306 (193 oğlan, 113 qız) cüdoçunun iştirak etdiyi yarışda Azərbaycan 13 idmançı ilə təmsil olunub.



Ölkəmizə yeganə medalı medalı "Judo Club 2012"nin yetirməsi Murad Fətiyev (81 kq) qazandırıb. Mübarizəyə 1/16 finaldan başlayan cüdoçumuz ilk görüşdə erməni əsilli rusiyalı idmançı Karegin Şahlamcyana, növbəti mərhələdə isə avstriyalı Saif-İslam İslamxanova qalib gəlib. 1/4 finalda daha bir rusiyalı cüdoçunu - Pavel Berlini mübarizədən kənarlaşdıran Murad yarımfinalda portuqaliyalı Migel Alvesi məğlub edərək finala yüksəlib. Finalda cüdoçumuzun rəqibi rusiyalı Turpal Tepkayev olub. Gərgin mübarizə şəraitində keçən qarşılaşmada Murad rəqibinə ipponla qalib gələrək qızıl medala layiq görülüb.

Azərbaycan komandası əldə etdiyi bir qızıl medalla turnirdə ümumi hesabda beşinci pillədə yer alıb.

## Qrossmeysterimiz Dubayda birinci yerə sahib çıxdı



Dubayda keçirilən "Allegiance to Zayed Chess Tournament 2019" şahmat turnirinə yekun vurulub. 9 turdan 8,5 xal toplayan azərbaycanlı qrossmeyster Qədir Hüseynov turnirin qalibi olub.

## Sablyaçımız Türkiyədə bürünc medala layiq görülüb

Sablya üzrə yığma komandamızın üzvləri Avropa Qılıncoynatma Konfederasiyasının İstanbulda keçirilən U-14 yarışında və U-12 açıq turnirində iştirak ediblər.

Turnirdə 6 sablyaçımız mübarizə aparıb. On dörd yaşınadək oğlan sablyaçıların yarışında Ayxan Xasiyev 116 iştirakçı arasında 11-ci, Murad Muradov 45-ci, Nurlan Zeynallı isə 53-cü oldular.

Eyni yaşadək qızların mübarizəsində isə ən yaxşı nəticə Zərifə Hüseynovaya məxsusdur. Qrupda keçirdiyi bütün görüşləri qələbə ilə başa vuran Z.Hüseynova yarımfinaladək irəliləyib. Sablyaçımız 85 iştirakçı arasında üçüncü yeri tutub.

On iki yaşadək atletlərin yarışında isə Murad Muradov 116 iştirakçı arasında 15-ci olub.



## Samboçularımız qitə çempionatını 2 medalla başa vurublar

İspaniyanın Xixon şəhərində keçirilən kişilər və qadınlar arasında idman və döyüş sambosu üzrə Avropa çempionatına yekun vurulub.

Qitə çempionatında Azərbaycan samboçuları iki medal qazanıblar. İdman sambosu üzrə Nəsimi Umbayev (52 kq), döyüş sambosu yarışında isə Bəxtiyar Abbasov (82 kq) bürünc medal qazanıblar.

## XIV Respublika Universiadasında güləş yarışları başa çatıb

"Gənclik" Tələbə İdman Cəmiyyəti Respublika Şurasının təşkilatçılığı ilə ali təhsil müəssisələrinin tələbələri arasında keçirilən XIV Respublika Universiadasında yunan-Roma və sərbəst güləş yarışlarına yekun vurulub.

Universiadaya daxil olan yunan-Roma güləşi və sərbəst güləş yarışları Milli Aviasiya Akademiyasının idman kompleksində keçirilib.

7 komandanın iştirak etdiyi yunan-Roma güləşi üzrə yarışlarda birinci yerə Gəncə Dövlət Universitetinin tələbələri layiq görülüblər.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin komandası ikinci, Sumqayıt Dövlət Universitetinin kollektivi isə üçüncü yerə sahib çıxıb.

10 komandanın iştirak etdiyi sərbəst güləş yarışlarında da Gəncə Dövlət Universiteti birinci olub. Azərbaycan Memarlıq və İnşaat



Universiteti və Azərbaycan Tibb Universitetinin komandaları isə müvafiq olaraq, ikinci, üçüncü yerləri tutublar.

Universiada çərçivəsində idmanın 10 növü - şahmat, dama, stolüstü tennis, basketbol, badminton, sərbəst güləş, yunan-Roma güləşi, cüdo, atletika və voleybol üzrə yarışlar təşkil olunub.


**olimpnews.az - sizin saytınız**





"Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin kollektivi cəmiyyətin sədri Fazil Hadıbəyova, əzizi

**Yusif Qaçay oğlu Abdullayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Respublika Yüksək İdman Ustalığı Məktəbinin kollektivi "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin sədri Fazil Hadıbəyova, əzizi

**Yusif Qaçay oğlu Abdullayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin sədri Fazil Hadıbəyova, əzizi

**Yusif Qaçay oğlu Abdullayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Qənbər Ağayev, Ələmdar Məmmədov, Mobil İsmayılov, Nazir Rəhimov, Aslan Abiyev, Saleh Yusifov və Hafiz Abiyev "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin sədri Fazil Hadıbəyova, əzizi

**Yusif Qaçay oğlu Abdullayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kollektivi I kurs tələbəsi

**Qadir Baxşıyevin**

vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!


Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.



*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19



DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.